RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 282 (8305) CÜMƏ AXŞAMI, 19 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Yeni mərhələ

## Prezident İlham Əliyevlə Vladimir Zelenski arasındakı qarşılıqlı etimad Azərbaycan-Ukrayna əlaqələrinin inkişafında önəmli rol oynayacaq

***Dünyanın siyasi arenasında yerini və çəkisini möhkəmləndirən Azərbaycan əksər dövlətlərlə münasibətlərini inkişaf etdirməkdədir. Tam müstəqil xarici siyasət həyata keçirən Prezident İlham Əliyevin uğurlu diplomatiyası ilə Azərbaycan əksər dövlətlərin Cənubi Qafqaz regionundakı ən etibarlı tərəfdaşı hesab olunur.***

***Bununla yanaşı, Azərbaycanın bir çox dövlətlərlə strateji tərəfdaşlıq, səmimi dostluq-qardaşlıq münasibətləri də mövcuddur. Onlardan biri də Ukraynadır. İki ölkəni və xalqları dostluq münasibətləri birləşdirir. Dekabrın 16-17-də bu ölkənin Prezidenti Vladimir Zelenskinin Azərbaycana səfəri və Prezident İlham Əliyevlə aparılan danışıqlar, imzalanan sənədlər, keçirilən digər görüşlər də bu münasibətlərə müsbət impuls verdi.***

### 27 illik uğurlu diplomatik münasibətlər

İki ölkə arasında diplomatik əlaqələr 31 yanvar 1992-ci ildə yaradılıb. 1996-cı ildə Ukraynanın ölkəmizdə, 1997-ci ildə isə Azərbaycanın Ukraynada səfirliyi açılıb.

Münasibətlərin əsasını 16 mart 2000-ci il tarixli Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilə və 22 may 2008-ci il tarixli dostluq və strateji tərəfdaşlıq haqqında bəyannamə təşkil edir. Azərbaycanla Ukrayna arasında siyasi, iqtisadi, elmi, təhsil, mədəni və digər sahələrdə əlaqələr yüksələn xətlə inkişaf edir.

BMT, AŞ, QDİƏT, GUAM, MDB və digər beynəlxalq və regional təşkilatlar çərçivəsində Azərbaycanla Ukrayna məsləhətləşmələr aparır və ənənəvi olaraq bir-birinə qarşılıqlı dəstək verir. Eyni zamanda iki ölkə terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotiklərin yayılması və digər təhlükəli növ cinayətlərlə mübarizə sahəsində fəal əməkdaşlıq edir.

Prezident İlham Əliyevin söylədiyi kimi, əlamətdar haldır ki, hələ 1918-1920-ci illərdə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda fəaliyyət göstərən 16 xarici dövlətin diplomatik missiyaları arasında Ukraynanın da nümayəndəliyi olub.

### İmzalanan sənədlər əlaqələrin daha da genişlənməsinə töhfəsini verəcək

Bu səfər zamanı iki ölkənin dövlət başçısı arasında mühüm görüş keçirildi, qarşılıqlı əlaqələr bir daha müzakirə olundu. Bəlli oldu ki, iki ölkə arasında siyasi, iqtisadi, enerji, nəqliyyat, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. Bu səfər zamanı əldə olunan razılaşmalar və imzalanan sənədlər isə əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verəcək.

İki ölkə arasında bir neçə yeni sənəd imzalandı. Bunlar Gəncə şəhəri və Odessa şəhəri arasında Niyyət Protokolu, Quba şəhəri ilə Truskavets şəhəri arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında müqavilə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Ukraynanın Dövlət Tənzimləmə Xidməti arasında biznesin aparılması şəraitinin tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə Ukraynanın Dövlət Xüsusi Rabitə və Məlumatın Mühafizəsi Xidməti Administrasiyası arasında Bakı-Kiyev dövlətlərarası hökumət rabitə xəttinin təşkil edilməsi haqqında sazişlərdir.

*Ardı 3-cü səh.*

# İkitərəfli münasibətlərin möhkəmlənməsində parlamentlərarası əməkdaşlığın rolu mühümdür

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçısına çatdırdı.

Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə bu yaxınlarda TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasiminin tarixi hadisə olduğu vurğulandı və bu, Türkiyə-Azərbaycan birliyinin növbəti nümayişi kimi dəyərləndirildi. Ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, enerji sahələrində uğurlu nəticələr verdiyi bildirildi, dövlət başçıları arasında mütəmadi görüşlərin bu əlaqələrin genişləndirilməsi işinə xüsusi töhfə verdiyi qeyd olundu.



Söhbət zamanı ikitərəfli münasibətlərimizin möhkəmlənməsində parlamentlərarası əməkdaşlığın rolu vurğulandı. Görüşdə, həmçinin TÜRKPA-nın IX plenar iclasının əhəmiyyətinə toxunuldu, Azərbaycanın Türk Şurasına uğurla rəhbərlik etməsinin və təşkilata dünyada marağın getdikcə artmasının önəmi qeyd olundu, bu qurum çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanların olduğu bildirildi.

# İnkişafa, rifaha və mütərəqqi idarəçiliyə xidmət edən islahatlar

Tarixin bütün dövrlərində planetin siyasi-hərbi və sosial-iqtisadi mənzərəsi təlatümlü olub. Təəssüf ki, zaman ötdükcə demək olar ki, dünyanın hər yerində baş qaldıran müharibələr, münaqişələr azalmayıb, əksinə artıb. Başa çatmamış bir təlatümdən sonra yeniləri yaranıb. Bu gün də istər hərbi-siyasi, milli, etnik, dini müstəvilərdə qarşıdurmalar davam edir. Ayrı-ayrı qütblərdə dayanan dövlətlərin hərbi ritorikası gündən-günə daha da artır.

### Hədəf daha qüdrətli dövlət qurmaqdır

Başa çatmaqda olan 2019-cu il beynəlxalq aləmdə təbəddülatlarla, geosiyasi mübarizənin daha da güclənməsi, ayrı-ayrı ölkələrin bir-birinin işinə kobudcasına qarışması, terrorçuluğun hələ də tüğyan etməsi ilə yadda qalacaq. Bu baxımdan cari il xalqların və dövlətlərin həyatında fərqli izlər qoyacaq. Bir qisim ölkələr növbəti ilə hansısa böhranla qədəm qoyacaq, bəziləri isə inkişaf, sabitlik və əmin-amanlıqla öz yolu ilə addımlayacaq.

Azərbaycan da dünya birliyinin üzvü kimi beynəlxalq proseslərdən kənar deyil. Hətta respublikamız bu gün qlobal məsələlərdə söz sahibi kimi çıxış edir, öz nüfuzu ilə müxtəlif proseslərə təsir edir. Başqa bir məsələ isə Azərbaycanın başa çatmaqda olan ili bir çox dövlətlərin həsəd aparacağı vəziyyətdə başa vurmasıdır. Azərbaycanın builki uğurları həqiqətən qürurvericidir. Yerləşdiyi region ətrafında cərəyan edən ziddiyyətli proseslər şəraitində ölkəmiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində daxili sabitliyini və inkişafını təmin etməklə, iqtisadiyyatını müsbət artım dinamikasına kökləməklə, irimiqyaslı layihələri reallaşdırmaqla beynəlxalq səviyyədəki nüfuz və rəğbətini daha da möhkəmləndirməyə müvəffəq olub.

*Ardı 5-ci səh.*

**◆ İlə yekun vurulur**

# Neftdən əldə olunan gəlirlər Azərbaycanın ümumi inkişafını təmin edir



*Bax: səh. 5*

# İstehsal da artır, tələbat da

*Azərbaycan elektrik enerjisinin idxalçısından ixracatçısına çevrilmişdir*

Elektrik enerjisi və ümumiyyətlə, enerji sistemləri iqtisadiyyatın istənilən sahəsindən fərqli təbiətə malikdir. Məsələn, avtomobil və dəmir yollarında, müxtəlif istehsal sahələrində baş verən qəzalar müəyyən vaxt ərzində - dəqiqələr, saatlar və ay ərzində baş verən qüsurların zəminində tədricən yaranır.

Hətta avtomobillərin toqquşması, qatarların aşması, ya da gəmilərin batması ani yox, müəyyən vaxt ərzində olur. Lakin elektrik enerjisinin istehsal və təchizat sistemlərində baş verən qəzalar işıq sürəti ilə göz qırpımında baş verir və fəsadlarının qarşısını almaq bir çox hallarda mümkün olmur. Məhz buna görə dünyada enerji təchizatında təhlükəsizlik məsələlərinə xüsusi önəm verilir.

Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevi qəbul etməsi, onunla yeni il qabağı ölkədəki elektrik enerjisi sistemlərinin vəziyyətini, o cümlədən təhlükəsizlik məsələlərinin ətraflı müzakirəsi xüsusi əhəmiyyət kəsb edir. Söhbətin ümumi məzmunu və birlikdə müzakirə edilən məsələlər belə qənaətə gəlməyə imkan verir ki, dövlət başçısı Azərbaycanın enerji təchizatına müasir dünya tələbləri səviyyəsində yanaşır, perspektivləri elmi cəhətdən araşdırır.

Ölkənin energetika sistemində aparılan islahatlar, son illər ərzində bir çox yeni elektrik stansiyalarının tikilməsi Azərbaycana özünü elektrik enerjisi ilə tam təmin etməyə və əlavə ixrac imkanlarına şərait yaratmışdır. Bu il işə salınan yeni istehsal gücləri də ölkənin energetika sisteminin uğurlu inkişafından xəbər verir. Dövlət başçısı "Şimal-2" Elektrik Stansiyasının fəaliyyətə başlamasını önəmli hadisə kimi qiymətləndirmiş, gücü 400 meqavat olan bu stansiyanın ölkənin enerji potensialını nəzərəçarpacaq dərəcədə artırdığını qeyd etmişdir.

*Ardı 5-ci səh.*

# TÜRKPA-nın Azərbaycanda keçirilən IX plenar iclasında Qazaxıstan da yüksək səviyyədə təmsil olunur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Nurlan Niqmatulin Qazaxıstanın birinci Prezidenti-Elbası Nursultan Nazarbayevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevə Türk Şurasının üzv ölkələrinin prezidentlərinin birgə qərarı ilə Türk Şurasının fəxri sədri adının verilməsinə görə qazax xalqı adından səmimi minnətdarlığını bildirdi. Qonaq Bakıda gedən böyük inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi.

Prezident İlham Əliyev Qazaxıstanın birinci Prezidenti-Elbası Nursultan Nazarbayevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qazaxıstanın birinci Prezidenti-Elbası Nursultan Nazarbayevə və Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə Qazaxıstanın birinci Prezidenti-Elbası Nursultan Nazarbayevlə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev arasında şəxsi dostluğun xalqlarımız arasında münasibətlərin inkişafında böyük rol oynadığı vurğulandı, Prezident İlham Əliyevin ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsi işinə verdiyi töhfələr xüsusi qeyd olundu.

Söhbət zamanı Azərbaycanla Qazaxıstan arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat, energetika və iqtisadi sahələrdə uğurla inkişaf etdiyi bildirildi, dövlət başçıları arasında görüşlərin bu münasibətlərin möhkəmləndirilməsi baxımından önəmi vurğulandı. Görüşdə, həmçinin Azərbaycanda yaxşı investisiya mühitinin olduğu, ölkəmizin investisiyalar üçün cəlbediciliyinin beynəlxalq qurumlar tərəfindən də təsdiq edildiyi bildirildi.

Söhbət zamanı parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunuldu, TÜRKPA-nın Azərbaycanda keçirilən IX plenar iclasında Qazaxıstanın da yüksək səviyyədə təmsil olunduğu və bu tədbirin münasibətlərimizin inkişafına töhfə verdiyi qeyd edildi.

# TÜRKPA-nın IX plenar iclasının iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Bakıda keçirilən IX plenar iclasının iştirakçıları dekabrın 18-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.





AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən iclas iştirakçıları ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Daha sonra Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə əklil, şəhidlik kitabəsinin üstünə gül dəstələri qoyulub.

## H.Ş.Mövsümovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Hüseyn Şərif oğlu Mövsümov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2019-cu il*

## V.M.Fərzəliyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda elmin inkişafında xidmətlərinə görə Vaqif Məcid oğlu Fərzəliyev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2019-cu il*

## Qax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 8,0 (səkkiz) milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2019-cu il*

# Türkiyə Böyük Millət Məclisinin Sədri Azərbaycana səfərə gəlib



Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) fəaliyyətdə olan sədri, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop TÜRKPA-nın Bakıda keçiriləcək 9-cu plenar iclasında iştirak etmək üçün dekabrın 18-də Azərbaycana səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Mustafa Şentopu Heydər Əliyev Beynəlxalq Aeroportunda Milli Məclis Sədrinin müavini Valeh Ələsgərov qarşılayıb.

# Milli Məclisdə TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının iclası olub

Dekabrın 18-də Milli Məclisdə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komissiyanın iclasında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan parlament nümayəndələri və ekspertlər iştirak ediblər.

Komissiyanın sədri İsmet Uçma iclası açaraq TÜRKPA-nın Bakıda keçirilən 9-cu plenar iclasına uğurlar arzulayıb. Qeyd edib ki, TÜRKPA yarandığı gündən etibarən çox səmərəli fəaliyyət göstərir. Qurumun ötən müddətdə keçirilən komissiya və plenar iclaslarının, müxtəlif mövzulara həsr olunmuş digər tədbirlərin ən böyük hədəfi qardaş ölkələrin parlamentləri arasında əməkdaşlığın daha da möhkəmləndirilməsidir.

Sonra İsmet Uçma iclasın gündəliyinə daxil edilən məsələləri təqdim edib. Bildirilib ki, iclasda yenidən işlənmiş hüquqi sənədlər, o cümlədən TÜRKPA-nın Reqlamenti və Katibliyi haqqında Əsasnamə layihələri, TÜRKPA seçki müşahidəsi haqqında Əsasnamə, "Turizm haqqında" və "Qeyri-maddi mədəni irsin qorunması haqqında" model qanun layihələri müzakirəyə çıxarılacaq. Gündəlik maddələrlə səsə qoyularaq qəbul edilib.

Diqqətə çatdırılıb ki, TÜRKPA tarixində ilk dəfə olaraq model qanun layihələri hazırlanıb və bu, quruma üzv ölkələrin milli qanunvericilik aktlarının bir-birinə uyğunlaşdırılması baxımından çox önəmlidir.

Komissiya sədri Azərbaycanda 2020-ci il fevralın 9-na təyin olunmuş növbədənkənar parlament seçkilərinin müvəffəqiyyətlə keçəcəyinə inamını bildirib.

İclasda çıxış edən Milli Məclisin deputatı Cavanşir Feyziyev "Turizm haqqında" model qanun layihəsinin Azərbaycan tərəfindən hazırlandığını söyləyib və sənəd barədə ətraflı məlumat verib. Bildirilib ki, turizm hər bir ölkənin inkişafı üçün əhəmiyyətli sahələrdən biridir. Ölkəmizdə də bu istiqamətdə zəruri addımlar atılır.

"Qeyri-maddi mədəni irsin qorunması haqqında" model qanun layihəsini təqdim edən Türkiyə Böyük Millət Məclisinin üzvü Yüksel Özkan sənəddə ehtiva olunan məsələlərin mahiyyəti barədə danışıb.

Müzakirələr zamanı çıxış edən Qazaxıstan parlamentinin üzvü, komissiyanın sədr müavini Nurlan Dulatbekov, Qırğızıstan Joqorku Keneşinin üzvü Ruslan Çoybekov, Azərbaycan Milli Məclisinin deputatı Hikmət Məmmədov model qanun layihələri barədə fikirlərini söyləyib, onların əhəmiyyətindən söhbət açıb, sənədlərdə əks olunmuş məsələlərin aktuallığını vurğulayıblar.

Komissiya sədri, Türkiyə Böyük Millət Məclisinin üzvü İsmet Uçma iclasın faydalı keçdiyini bildirib, komissiya üzvlərinə qurumun uğurlu fəaliyyətində göstərdikləri səylərə görə təşəkkür edib.

# Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının IX plenar iclası keçirilib

## TÜRKPA-ya sədrlik Azərbaycana keçib




Dekabrın 18-də Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) Şurasının 9-cu iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda TÜRKPA-ya sədrlik Türkiyədən Azərbaycana keçib.

Tədbiri açan TÜRKPA-nın fəaliyyətdə olan sədri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Mustafa Şentop quruma üzv ölkələrin fəaliyyətlərini yüksək qiymətləndirib. O qeyd edib ki, başda Spiker Oqtay Əsədov olmaqla Azərbaycan parlamenti hər zaman TÜRKPA-nın fəaliyyətini dəstəkləyib, Qazaxıstan və Qırğızıstan parlamentləri də mühüm addımlar atıb. Nəticədə gündən-günə güclənərək 11 yaşına çatan bu qurum ortaq tarixi, dili və mədəniyyəti olan türk xalqlarının birliyinin simvoluna çevrilib. Bugünkü tədbirdə Özbəkistan parlamentinin təmsilçilərinin qonaq qismində iştirakını alqışlayan Mustafa Şentop hələlik qurumdan kənarda qalan digər türk dövlətlərinin də TÜRKPA-ya qoşulmasını arzulayıb. Azərbaycan torpaqlarının işğaldan azad olunmasını istədiklərini deyən TBMM Sədri bildirib ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır.

TÜRKPA-ya sədrliyi qürur hissilə təhvil aldığını söyləyən Milli Məclisin Sədri Oqtay Əsədov bu quruma sədrliyi dövründə səmərəli fəaliyyət göstərmiş Mustafa Şentop başda olmaqla Türkiyə Böyük Millət Məclisinə təşəkkürünü bildirib.

Oqtay Əsədov məmnunluqla qeyd edib ki, təşkilatın fəaliyyət göstərdiyi 10 ildən artıq müddətdə üçüncü dəfədir TÜRKPA-nın əsas tədbirləri Bakıda keçirilir. Siyasi, iqtisadi, mədəni və digər əlaqələrimizin inkişafına bu qurumun verdiyi töhfənin ildən-ilə artması təşkilatın fəaliyyətinin səmərəli şəkildə qurulduğunu sübut edir.

Milli Məclisin Sədri bildirib ki, qarşıdakı dövrdə üzv ölkələrin milli qanunvericiliyinin yaxınlaşdırılması, model qanunların hazırlanması, komissiyaların fəaliyyətinin gücləndirilməsi, parlament aparatları arasında təcrübə mübadiləsi proqramlarının həyata keçirilməsi diqqət mərkəzində olacaq. Oqtay Əsədov qurum üzvlərini əmin edib ki, TÜRKPA-nın məqsədlərinin həyata keçməsi üçün Azərbaycan tərəfi lazım olan bütün tədbirlərin görülməsinə çalışacaq.

Sədr nəzərə çatdırıb ki, ötən dövrdə TÜRKPA-nın beynəlxalq aləmdə tanıdılması istiqamətində mühüm tədbirlər həyata keçirilib. Hazırda bu təşkilat dünyanın 179 ölkəsinin üzv olduğu Parlamentlərarası İttifaqda, İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında, Asiya Parlament Assambleyasında, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə Təşkilatında müşahidəçi statusuna malikdir. ATƏT PA-nın fəaliyyətində TÜRKPA-nın qonaq statusunda iştirak etməsi barədə razılıq əldə edilib. Avropa Parlamenti və MDB PA ilə əməkdaşlıq əlaqələri qurulub. Bunlarla yanaşı, TÜRKPA-nın Baş katibi Parlamentlərin Baş Katibləri Assosiasiyasının üzvüdür ki, bu fakt da təşkilatın beynəlxalq nüfuzundan xəbər verir.

Oqtay Əsədov onu da qeyd edib ki, 9 ildir TÜRKPA-nın beynəlxalq müşahidəçilər missiyası üzv ölkələrdə keçirilən prezident və parlament seçkilərini müşahidə edir. Missiya fəaliyyətini növbəti dövrdə də davam etdirəcək, gələn il ölkəmizdə keçiriləcək parlament seçkiləri TÜRKPA missiyası tərəfindən müşahidə ediləcək.

TÜRKPA-nın yeni sədri bildirib ki, Azərbaycanın sədrliyi dövründə qurum türk dünyasının diasporları arasında əməkdaşlığın inkişafına və müxtəlif layihələrin həyata keçirilməsinə dəstək verəcək, qarşılıqlı fəaliyyətin gücləndirilməsinə xüsusi diqqət yetiriləcək.

Çıxışını yekunlaşdıran Milli Məclisin Sədri əmin olduğunu bildirib ki, getdikcə daha mütəşəkkil qüvvəyə çevrilən TÜRKPA öz qarşısında dayanan bütün vəzifələri uğurla yerinə yetirəcək və xalqlarımızın problemlərini həll etməyin səmərəli vasitəsinə çevriləcək.

Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulin, Qırğızıstan Joqorku Keneşinin Sədri Dastanbek Jumabekov çıxışlarında dünyanın geosiyasi xəritəsində türkdilli xalqların yerinə və roluna toxunublar. Onlar əmin-amanlığın və sülhün qorunmasının vacibliyini qeyd ediblər. Bölgədə təhlükəsizliyin təmin edilməsi ən vacib məsələ kimi önə çəkilib. Vurğulanıb ki, TÜRKPA çərçivəsində ortaq fəaliyyət türk dünyasının inkişafına dəstək verəcək.

İclasda parlament diplomatiyasının rolu yüksək dəyərləndirilib. Qeyd olunub ki, TÜRKPA çərçivəsində model qanunların hazırlanması vacibdir. Kiçik və orta biznesə dəstək verən qanunların qəbul edilməsi ölkələrimiz arasında iqtisadi əlaqələrin möhkəmlənməsinə yardım edər.

Qazaxıstan və Qırğızıstan parlamentlərinin spikerləri sosial, mədəni, humanitar sahələrdə nəzərdə tutulan tədbirlərdən də ətraflı söhbət açıblar. Ümid ifadə olunub ki, yaxın gələcəkdə Özbəkistan və digər türkdilli dövlətlər də TÜRKPA-ya üzv ölkələr sırasına qoşulacaqlar.

Şura iclasının açılış mərasimi başa çatdıqdan sonra qurum üzvləri gündəlikdəki məsələləri müzakirə ediblər.

Fasilədən sonra TÜRKPA-nın IX plenar iclası keçirilib.

İclasda "Türk dünyasında parlament diplomatiyası: Sülh və təhlükəsizlik naminə regional əməkdaşlığın möhkəmləndirilməsi" mövzusunda müzakirələr aparılıb, müvafiq qərarlar qəbul edilib.

Tədbirdə Bakı Bəyannaməsi qəbul olunub.

Sonra ailə fotosu çəkdirilib.

Sonda mətbuat konfransı keçirilib, jurnalistlərin sualları cavablandırılıb.

# Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun rəhbərləri ilə görüş keçirilib

Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik korpusun rəhbərləri ilə dekabrın 18-də cari ilin yekunlarına həsr olunan görüş təşkil edilib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Xarici İşlər naziri Elmar Məmmədyarov Azərbaycanın 2019-cu il ərzində həyata keçirdiyi xarici siyasət və bu istiqamətdə əldə olunan nailiyyətlər barədə danışıb. Nazir əsas diqqəti ölkəmizin xarici siyasətinin prioritet məsələsi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinə ayırıb. O, ölkəmizin cari il ərzində davam etdirilən uğurlu xarici siyasətinin, o cümlədən həyata keçirilən yüksəksəviyyəli səfərlərin, paytaxtımızda təşkil olunan beynəlxalq tədbirlərin, qəbul olunmuş mühüm sənədlərin və imzalanmış ikitərəfli razılaşmaların nəinki bölgəmizdə, həmçinin geniş beynəlxalq müstəvidə sülh və təhlükəsizliyin, davamlı inkişafın təmin olunmasına xidmət etdiyini deyib.

Nazir ikitərəfli münasibətlərin inkişafı istiqamətində diplomatik korpusun səylərini yüksək qiymətləndirib və onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.







Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Prezident İlham Əliyevin ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun rəhbərlərinə və həmin ölkələrin dövlət başçılarına təbriklərini çatdırıb.

Tədbirdə diplomatik korpusun adından Fələstin Dövlətinin Azərbaycandakı səfiri Nasir Əbdül Kərim çıxış edib. O, Azərbaycandakı diplomatik korpusun fəaliyyəti üçün yaradılan şəraiti yüksək dəyərləndirib.

Sonda Azərbaycanın diplomatik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

# Bakıda Ukrayna Ticarət Evi açılıb

Bakıda Ukrayna Ticarət Evi açılıb. AZƏRTAC xəbər verir ki, bununla əlaqədar keçirilən tədbirdə İqtisadiyyat naziri Mikayıl Cabbarov, Ukraynanın İnfrastruktur naziri Vladislav Krikli, Ukrayna Ticarət və Sənaye Palatasının prezidenti Gennadi Çijikov iştirak ediblər.

Tədbirdə məlumat verilib ki, Ukrayna Ticarət Evi 2018-ci ilin aprelində təsis olunub. Logistik mərkəz və iqtisadi-ticarət məkanı rolunu oynayacaq Ukrayna Ticarət Evinin açılmasında məqsəd ölkələrimiz arasında işgüzar əlaqələrin, ikitərəfli ticarətin genişləndirilməsi, həmçinin iş adamları arasında yeni əlaqələrin qurulmasına dəstək verilməsi, konsaltinq və digər kommersiya xidmətlərinin göstərilməsidir.

Ümumi sahəsi 1000 kvadratmetr olan ticarət evində mühəndislik, metallurgiya, kimya sənayesi, aqrar-sənaye, habelə yüksək texnologiyalı məhsulların istehsalı sahələri üzrə ixtisaslaşmış 30-dək Ukrayna şirkəti iştirakçı kimi çıxış edir.




Açılış mərasimində İqtisadiyyat naziri M.Cabbarov Azərbaycan-Ukrayna iqtisadi-ticarət əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayıb, Ukrayna Ticarət Evinin bu sahədə əhəmiyyətli platforma olacağına əminliyini ifadə edib və ticarət evinin işinə uğurlar arzulayıb.

Ukraynanın İnfrastruktur naziri V.Krikli ölkəsinin Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini və iqtisadi əlaqələrin inkişafında maraqlı olduğunu diqqətə çatdırıb, Ukrayna Ticarət Evinin biznes dairələri arasında tərəfdaşlıq münasibətlərinin genişlənməsinə əlavə imkanlar yaradacağını bildirib.

# Yeni mərhələ

## Prezident İlham Əliyevlə Vladimir Zelenski arasındakı qarşılıqlı etimad Azərbaycan-Ukrayna əlaqələrinin inkişafında önəmli rol oynayacaq

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, iki ölkə arasında indiyədək 130-dan çox sənəd imzalanıb. Ukrayna Prezidentinin bu səfəri zamanı imzalanan sazişlər və aparılan danışıqlar isə Azərbaycan və Ukrayna arasındakı münasibətlərə yeni təkan vermək üçün ortaq səy və siyasi iradənin olduğunu təsdiqlədi.

### 374 milyon dollarlıq sərmayə, 20 faiz artan ticarət dövriyyəsi

Dekabrın 17-də Bakıda keçirilən Azərbaycan-Ukrayna biznes forumunda isə iki ölkə arasında mövcud olan iqtisadi-ticari münasibətlərin daha da şaxələndirilməsi yolları müzakirə edildi.

Öncə onu qeyd edək ki, son statistik məlumata görə, Ukrayna iqtisadiyyatına Azərbaycanın sərmayələri 374 milyon dollar, Azərbaycan iqtisadiyyatına Ukrayna sərmayələri isə 25 milyon dollardır. Hazırda Azərbaycanda Ukrayna kapitallı 150-dən artıq şirkət fəaliyyət göstərir.

2018-ci ildə ölkəmizlə xarici ticarət dövriyyəsinin həcminə görə Ukrayna 10-cu yeri tutub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-sentyabr aylarında Ukrayna ilə ticarət dövriyyəsi 20 faiz artıb.

Biznes forumda çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, iki ölkə arasında enerji sahəsində uğurlu əməkdaşlıq mövcuddur. Ukraynada SOCAR-ın nümayəndəliyi fəaliyyət göstərir. Ukrayna ərazisində SOCAR-ın 62 yanacaqdoldurma məntəqəsi və "SOCAR Energy Ukraine" şirkətinə aid 4 neft bazası mövcuddur.

2018-ci ildən Kiyevdə Azərbaycan Ticarət Evi fəaliyyət göstərir, dekabrın 17-də isə Ukrayna Prezidenti Vladimir Zelenskinin iştirakı ilə Bakıda "Ukrayna məhsulları" Mərkəzi Kompleksi, dünən isə "Ukrayna Ticarət Ev"nin açılışı olub.

### Hələ istifadə olunmamış çox böyük potensial var

"Bizim aramızda yaranan qarşılıqlı etimad, əminəm ki, Ukrayna-Azərbaycan əlaqələrinin inkişafı üçün önəmli rol oynayacaq". 90-dan çox Ukrayna, 100-dən artıq Azərbaycan şirkətinin iştirak etdiyi biznes forumda bu fikirləri səsləndirən cənab İlham Əliyev həm də qeyd etdi ki, bu görüş biznes dairələri arasındakı əlaqələrə müsbət təsir göstərəcək.

Ancaq iki ölkə arasında iqtisadi sahədə istifadə olunmamış çox böyük potensial var. Ona görə də bu il ticarət dövriyyəsinin artmasına baxmayaraq, mütləq rəqəmlər dövlət başçılarını qane etmir: "Xüsusilə Azərbaycanın Ukraynaya ixracı birtərəflidir, yəni bu, enerji daşıyıcıları əsasında formalaşır. Biz çox istərdik ki, Ukraynaya ixracımızı şaxələndirək və bu məqsədlə bir neçə addım atılmışdır, o cümlədən keçən il Kiyevdə Azərbaycanın ticarət evi açılmışdır. Hesab edirəm ki, belə ticarət evlərinin sayı çox olmalıdır və bu gün Bakıda Ukraynanın ticarət mərkəzi açılmışdır. Bu da çox gözəl hadisədir".

### Əməkdaşlıq üçün çox geniş imkanlar var

Prezidentlər arasında müzakirə olunan məsələlərdən biri də nəqliyyatla bağlı idi. Çünki iki ölkə arasında bu sahədə də əməkdaşlıq üçün çox geniş imkanlar var.

Cənab İlham Əliyev hesab edir ki, Azərbaycan Ukraynanın nəqliyyat infrastrukturunu ölkəmizin nəqliyyat infrastrukturu ilə birləşdirə və vahid tarif siyasəti apara bilsə, iki dövlətin ərazisindən keçən yükdaşımaların həcmi kəskin artar.

Prezident Vladimir Zelenski isə Ukraynanın 400-dən çox müəssisəsinin özəlləşdirmə üçün hazır olduğunu deyərək vurğuladı ki, çoxlu infrastruktur layihələrini həyata keçirmək niyyətindədirlər. Hətta 16 min kilometr yol inşa etməyə hazırdırlar: "Biz bunun marağındayıq ki, Azərbaycan şirkətləri Ukraynada yollar tiksinlər. Bilirik ki, onlar başqa ölkələrdə uğurla işləyirlər. Hamıya məlumdur ki, Azərbaycanın "Bakcell" mobil operatoru Ukrayna bazarına daxil olub və onun investisiyaları 700 milyon dollara yaxındır. Ukrayna dövləti olaraq bizim vəzifəmiz bu investisiyaları qorumaqdır. Əlbəttə, bütün bunlar qarşılıqlı etimad səviyyəsində həyata keçirilir. Biz çox istəyirik ki, Azərbaycan Ukraynaya sərmayə yatırsın. Biz, həmçinin istəyirik ki, Ukrayna da Azərbaycanda təmsil olunsun. Bizim güclü iqtisadi münasibətlərimiz, həmçinin tarixi münasibətlərimiz var".

Prezident, həmçinin dedi ki, SOCAR şirkəti ilə çox səmimi tərəfdaşlıq, dostluq münasibətləri də mövcuddur. Ukrayna-Azərbaycan əməkdaşlığından söz düşəndə dərhal SOCAR xatırlanır. Ona görə də bu əməkdaşlığın daha da genişlənməsi arzu olunur. Dövlət başçısının sözlərinə görə, Ukrayna hökuməti SOCAR şirkətinin köməyi ilə sərhədin ayrı-ayrı hissələrində xidmətlər təqdim edilməsi üzrə bütöv komplekslər tikib və gələcəkdə bu fəaliyyəti genişləndirmək niyyətindədirlər.

Vladimir Zelenskinin Azərbaycana rəsmi səfəri Ukrayna-Azərbaycan əlaqələrinin yüksələn xətlə inkişafının göstəricisidir. Ancaq dövlət başçıları arasında aparılan danışıqlardan, biznes forumda səslənən fikirlərdən də bəlli oldu ki, hər iki tərəf iqtisadi-ticari münasibətlərin daha da inkişafının tərəfdarıdır. Çünki iki ölkə arasında ikitərəfli iqtisadi münasibətlərin inkişaf etdirilməsi üçün geniş potensial və əlverişli imkanlar mövcuddur.

Əminliklə deyə bilərik ki, Vladimir Zelenskinin Ukrayna Prezidenti kimi Azərbaycana ilk səfəri, imzalanan yeni sazişlər və razılaşmalar iki ölkənin siyasi-iqtisadi, sosial-mədəni münasibətlərini yeni inkişaf mərhələsinə yüksəldəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Prezident İlham Əliyevin siyasəti: mədəniyyətlərarası və dinlərarası harmoniya" mövzusunda konfrans





Dekabrın 18-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə "Prezident İlham Əliyevin siyasəti: mədəniyyətlərarası və dinlərarası harmoniya" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçən tədbirdə dövlət rəsmiləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, elm, mədəniyyət və incəsənət xadimləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransda Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək deyib ki, nümunəvi tolerantlıq və multikulturalizmin hökm sürdüyü, dinc birgəyaşayış və dialoq mədəniyyətinin, mənəvi harmoniyanın mövcud olduğu Azərbaycan müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu dövlət başçısının qlobal təşəbbüsü və səyləri, siyasi iradəsi sayəsində layiqli şəkildə həyata keçirir.

Qeyd edib ki, Azərbaycan dövləti ötən ay beynəlxalq müstəvidə dini, siyasi və elmi ictimaiyyətin qlobal problemlərin birgə müzakirəsini təmin etməklə nümunəvi ilkə imza atıb. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüs və çağırışı ilə ərsəyə gəlmiş Dünya dini liderlərinin II Bakı Sammiti Azərbaycanın dünya miqyasında mədəni-mənəvi dəyərlər mərkəzi statusunu bir daha təsdiq edib. Dünyanın 500-ə yaxın tanınmış din, dövlət və ictimai xadiminin iştirakı ilə baş tutan, bəşəriyyəti narahat edən problemlərin mənəvi dəyərləndirilməsi üçün özəl əhəmiyyət kəsb edən qlobal miqyaslı bu Zirvə görüşü Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq platformasında qabaqcıl rolunun göstəricisi olaraq, dinlərarası əməkdaşlıq tarixinin səhifələrinə həkk olunub.

Azərbaycanın müxtəlif dinləri, mədəniyyətləri bir araya gətirən, qlobal əhəmiyyətli ideyalar ətrafında cəm edən, sülh və qarşılıqlı anlaşma mühitinə xidmət edən bu missiyasını davamlı və ən yüksək səviyyədə həyata keçirən dövlət kimi dünyanın diqqət mərkəzində olduğunu söyləyən Allahşükür Paşazadə bildirib: "Dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, antisemitizm, radikalizm təzahürlərinin artdığı, miqrant böhranının yaşandığı müasir dövrdə Azərbaycanın dövlət başçısı qlobal miqyasda ümumbəşəri ideyaların ətrafında cəm olmağa çağırmaqla insani həmrəylik, humanizm ideallarının bərqərar olmasına öz töhfəsini verir. Dini-mədəni dəyərlərə savaş açıldığı narahat dünyamıza Azərbaycan öz nadir təcrübəsini - multikulturalizm modelini təklif edir. Beləliklə, bu gün Azərbaycan öz üzərinə tarixi missiya götürərək müxtəlif beynəlxalq forumlara, dünya dini liderlərinin sammitlərinə evsahibliyi, qlobal hərəkata çevrilmiş "Bakı Prosesi"nə rəhbərlik edir. Prezident İlham Əliyevin dövlət-din siyasəti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dünya miqyasında siyasi-mədəni sahədə dəyərli fəaliyyəti sayəsində bu gün Azərbaycan dinlərarası, konfessiyalararası, həmçinin məzhəblərarası həmrəyliyin milli birlik, mənəvi vəhdət, dini-mədəni müxtəlifliyin, mədəniyyətlərarası və dinlərarası harmoniyanın unikal nümunəsidir".

Allahşükür Paşazadə, həmçinin Prezident İlham Əliyevi qarşıdan gələn doğum günü münasibətilə təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli bildirib ki, Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkəmizdə sivilizasiyalararası, mədəniyyətlərarası, dinlərarası dialoqun ən müxtəlif formaları dövlət səviyyəsində dəstəklənir, ölkəmiz bu dialoqun əsas mərkəzlərindən biri kimi qəbul olunur: "Bu, Azərbaycan Prezidentinin ardıcıl fəaliyyəti ilə bağlı olan prinsiplərdir. Ölkəmizdə, sözün əsl mənasında, müstəqillik dövründə Azərbaycançılıq prinsipinə əsaslanan və digər xalqların mədəniyyətləri ilə zənginləşmiş yeni tipli bir mədəniyyət formalaşıb. Bu mədəniyyət Azərbaycanda birgəyaşayışa, çoxmillətli cəmiyyətin harmoniyasına, multikultural dəyərlərin ön mövqeyə çəkilməsinə, dinlərarası harmoniyanın möhkəm üzvi sintezinin yaranmasına gətirib çıxarıb. Bu da həmrəylik, ictimai-siyasi cəhətdən möhkəm Azərbaycan modelini ortaya qoyub. Bu isə cəmiyyətin, iqtisadiyyatın bütün sahələrində, hətta beynəlxalq səviyyədə ölkəmizin dinamik inkişafının möhkəm əsaslarına çevrilib".

Mədəniyyət naziri Əbülfəs Qarayev qeyd edib ki, bu il bizim üçün uğurlu il olub, paytaxtımız dörd mühüm tədbirə evsahibliyi edib. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası, Qoşulmama Hərəkatı, Dünya dini liderlərinin II Sammitinin Bakıda keçirilməsi ölkəmizdəki tolerantlıq mühitindən xəbər verir. "Ölkəmizdə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ötən 10 ildə elə bir nüfuz qazanıb ki, artıq nə beynəlxalq təşkilatlar, nə də hər hansı bir dövlət bu nüfuzu şübhə altına sala bilməz. İki il əvvəl BMT-nin Baş katibi və bu il BMT-nin Baş Assambleyası Mədəniyyətlərarası Dialoq Forumunu dünyanın ən əsas qlobal platformalarından biri kimi elan etdi. Bu siyasət dünya miqyasında qəbul olunan siyasətdir. Bu istiqamətdə Azərbaycanda keçirilən tədbirlər də ölkəmizin mövqeyini daha da artırır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sayəsində 13 qeyri-maddi və 3 mədəni irsimiz UNESKO-nun siyahısına daxil edilib. Azərbaycan dünyada təkcə neft ölkəsi deyil, həm də mədəniyyət, tarix, tolerantlıq nümayiş etdirir. Müxtəlif mədəniyyətlərə hörmət xalqımızın mədəniyyətinin bir parçası kimi formalaşaraq inkişaf edib. Xalqımız hər zaman müxtəlif mədəniyyətlərə, dinlərə hörmətlə yanaşıb və bu gün də belədir", - deyə nazir vurğulayıb.

Mədəniyyətlərarası və dinlərarası harmoniyanın müasir dünyamızın ən mühüm çağırışlarından biri olduğunu deyən DQİDK-nın sədri Mübariz Qurbanlı qeyd edib ki, bu gün baş verən hadisələrin kökünü tarixin hansısa hissəsində görürük. Komitə sədri son üç əsr dünyada baş verən hadisələrə, problemlərə nəzər salaraq bu problemlərin həll edilməsi üçün sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası dialoqun vacibliyini vurğulayıb. Bildirib ki, bu gün dini və etnik zəmində onlarla münaqişənin davam etdiyi bir dövrdə öz mədəniyyətimizin, dilimizin, dinimizin qorunması olduqca vacib məsələdir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə biz dini-mənəvi, həm də mədəni dəyərlərimizi mühafizə edə bildik. Prezident İlham Əliyevin sayəsində isə bu dəyərləri daha da zənginləşdirdik, onu həm ölkəmizin, həm də dünyamızın inkişafı üçün böyük potensiala çevirdik. Bu prosesdə ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri xüsusi vurğulanmalıdır.

Komitə sədrinin sözlərinə görə, mədəniyyətlər və dinlərarası dialoq dedikdə ilk ağıla gələn ölkələrdən biri də Azərbaycandır. Hər kəs ölkəmizi sülhün, dialoqun mərkəzi və dəstəkçisi kimi tanıyır və qəbul edir.

Konfransda çıxış edən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasının sədri Robert Mobili Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda dövlət-din münasibətlərinin inkişaf dinamikası, Azərbaycan cəmiyyətinə xas olan tolerant və multikultural ənənələrin dövlətin dəstəyi ilə daha da inkişaf etməsi, dini konfessiyalara dövlət qayğısı, ölkəmizin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə verdiyi töhfələrdən söz açıblar.

# Daha 4 sosial təminat növü üzrə elektron təyinat sistemi və 4 növ elektron arayış xidməti təqdim edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 4 sosial təminat növünün - 1 yaşınadək uşağı olan və ünvanlı sosial yardımı almaq hüququna malik aztəminatlı ailələrə ödənilən, habelə müharibə və 20 Yanvar əlillərinin, Çernobıl qəzası ilə əlaqədar I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslərin uşaqlarına aylıq müavinətlərin təyinatı elektronlaşdırılıb.

Həmçinin nazirlik 4 növ elektron arayış xidmətini - mənzillə təminat, ünvanlı dövlət sosial yardımının təyinatı, ödənişi, habelə fərdi şəxsi hesablar barədə arayışların alınması üzrə e-xidmətləri istifadəyə verib.

AZƏRTAC xəbər verir ki, dekabrın 18-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyində yeni e-təyinat sistemləri və e-arayış xidmətləri ilə əlaqədar təqdimat tədbirində nazirliyin Sosial təminat siyasəti şöbəsinin müdiri Babək Hüseynov əmək, məşğulluq, Sosial təminat sahələri üzrə idarəçiliyin və xidmətlərin elektron texnologiyalar üzərində qurulmasının aparılan islahatların əsas istiqamətlərindən olduğunu qeyd edərək bildirib ki, 2019-cu ilin əvvəlindən ölkəmizdə pensiyaların avtomatlaşdırılmış qaydada təyinatı mexanizmi işə salınıb. Həmçinin bu ilin ilk aylarından sosial müavinət və təqaüdlərin e-təyinatı infrastrukturunun da qurulması işlərinə başlanıb.

Şöbə müdiri qeyd edib ki, hazırda daha 4 sosial təminat növünün də e-təyinatı sistemləri təqdim edilir və bununla 2019-cu ildə sosial təminat növləri üzrə istifadəyə verilən e-təyinat sistemlərinin sayı 14-ə çatır. Onların sırasına yaşa və əlilliyə görə pensiyanın, uşağın doğulmasına görə birdəfəlik müavinətin, əlilliyə görə, sağlamlıq imkanları məhdud uşağa, 1 yaşınadək uşağı olan aztəminatlı ailələrə, müharibə və 20 Yanvar əlillərinin, Çernobıl qəzası ilə əlaqədar I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslərin uşaqlarına aylıq müavinətin, müharibə və 20 Yanvar əlillərinə, I dərəcə əlilliyi olan şəxslərə Prezident təqaüdünün və s. təminat növlərinin e-təyinat sistemləri daxildir.

Qeyd edilib ki, müavinət və təqaüdlərin təyinatında avtomatlaşdırma tədbirləri illik təqribən 180 minədək təyinatın vətəndaşların hər hansı bir ünvana üz tutmasına ehtiyac olmadan elektron şəkildə həyata keçirilməsi deməkdir. Eyni zamanda dekabrın 18-dən daha 4 e-arayış xidmət təqdim edilir və bununla da nazirliyin e-arayış xidmətlərinin sayı artıq 12-yə çatır.

Tədbirdə nazirliyin e-xidmətlər və innovasiyalar şöbəsinin müdiri Kənan Əkpərov yeni e-təyinat sistemləri barədə məlumat verərək deyib ki, qeyd edilən müavinətlərin təyinatı vətəndaşların həmin sosial ödənişlərin təyin edilməsi üçün hansısa quruma müraciət etməsinə ehtiyac qalmadan elektron qaydada aparılacaq. Misal üçün, aztəminatlı ailəyə ünvanlı sosial yardımı elektron qaydada təyin olunduqda sistemə daxil edilmiş müvafiq məlumat əsasında həmin ailədəki 1 yaşa qədər olan uşağa da aylıq müavinət avtomatik təyin ediləcək.

K.Əkpərov, həmçinin mənzillə təminat, ünvanlı dövlət sosial yardımının təyinatı, ödənişi, fərdi şəxsi hesablar barədə arayışın alınması üzrə e-xidmətlərdən istifadə prosedurlarını diqqətə çatdırıb. Qeyd edilib ki, vətəndaş portala daxil olur və orada formalaşan şəxsi kabinetində "e-arayış" altbölməsini, həmin bölmədə arayışın növünü seçir və bu zaman arayış avtomatik olaraq formalaşır. Bundan sonra vətəndaş arayışı çap edərək müvafiq quruma təqdim edə, yaxud elektron qaydada göndərə bilər. Vətəndaşa arayışın etibarlılıq müddətini də özü müəyyən etmək imkanı verilir.

Beləliklə, artıq nazirliyin 12 e-arayış xidməti fəaliyyət göstərir. Onların sırasına iş yerinə və əlilliyə dair, müavinət və təqaüdlə, pensiya, maddi yardım və birdəfəlik ödəmə ilə, dövlət tərəfindən mənzillə və avtomobillə təmin edilmə barədə, həmçinin ünvanlı dövlət sosial yardımının təyinatı və bu yardımın ödənişi, fərdi şəxsi hesab barədə e-arayış xidmətləri daxildir.

# Sosial Tədqiqatlar Mərkəzi yeni imtahan modeli ilə bağlı analitik hesabatını təqdim edib





Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən hazırlanan "Azərbaycan Barometri" jurnalının ikinci sayında "Tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının yeni modeli" ictimai rəy sorğusu əsasında analitik hesabat dərc edilib.

AZƏRTAC xəbər verir ki, dekabrın 18-də hesabatdakı məqamlarla bağlı konfrans keçirilib.

Konfransda STM İdarə Heyətinin sədri, deputat Zahid Oruc, Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova, Təhsil naziri Ceyhun Bayramov, Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Maleykə Abbaszadə və başqaları çıxış ediblər.

Dərc olunan hesabatda bildirilir ki, Azərbaycandakı inkişafın yeni mərhələsində təhsil sistemində köklü islahatların aparılması strateji məsələ kimi dövlət siyasətinin daim diqqət mərkəzində qərarlaşıb.

2012-ci ildə TQDK-nın əsasnaməsinin dəyişdirilməsi və monitorinq imtahanlarının keçirilməsinin bu quruma həvalə edilməsi, 2015-ci ildən etibarən bilik və bacarıqların qiymətləndirilməsi ilə bağlı Təhsil Nazirliyi ilə DİM-in birgə işçi qrupunun yaradılması, 2017-ci ildə ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə təhsilalanların biliyinin DİM tərəfindən yeni qaydalarla yoxlanılması və nəhayət, 2019-cu ildə sözügedən iki qurumun birgə fəaliyyəti nəticəsində tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarının, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının yeni modeli buna misal göstərilə bilər.

Bu ilin fevral ayından etibarən həm kağız daşıyıcıları, həm də onlayn sınaq imtahanları, mart ayından etibarən isə buraxılış və qəbul imtahanlarının keçirilməsi, yəni, yeni təhsil modelinin tətbiqi cəmiyyətdə böyük müzakirələr doğurub. Yeni modellə bağlı müxtəlif yanaşmaların davam etdiyi bir şəraitdə Sosial Tədqiqatlar Mərkəzi buraxılış və qəbul imtahanlarında bu il tətbiq olunan yeni modelin müsbət və mənfi tərəflərini, ümumilikdə Azərbaycanın təhsil sisteminin bugünkü vəziyyətini və cəmiyyətin bu yeniliklərə münasibətini Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri, Təhsil Nazirliyinin, Dövlət İmtahan Mərkəzinin nümayəndələri, abituriyentlər, valideynlər, müəllimlər və təhsil ekspertləri arasında cari ilin iyun-iyul aylarında ictimai rəy sorğusu keçirib.

STM-in 539 respondent və 12 ekspert arasında keçirdiyi ictimai rəy sorğusu DİM-in regional mərkəzləri əsas götürülməklə 10 şəhər və rayonu əhatə etməklə genişmiqyaslı tədqiqatın nəticələrinin təsbiti ilə nəticələnib. Sorğunun nəticələrinin təhlili göstərir ki, müasir tədris proqramlarına uyğun imtahan modelinin tətbiqi barədə geniş maarifləndirmə işi həyata keçirilsə də, onun mənimsənilmə arealından bəzi abituriyentlər kənarda qalıb. Çünki kurikulumları mənimsəmə problemi meydana çıxıb. Ümumi fikrə görə, bu modelin tətbiqi orta və ali təhsil səviyyələri arasındakı bağları gücləndirir. Respondentlərin 45 faizi yeni modeli faydalı hesab etməsə də, ekspertlər bildirir ki, yeni qəbul üsulu axtarışlara və islahatlara zəmin yaratmaqla keyfiyyətə xidmət edir. Yeni qəbul modelinin məzmununa diqqət yetirərkən məlum olur ki, kurikulumla tətbiq edilən model arasında müəyyən problemlər mövcuddur. Hesabatda ictimaiyyətin test üsuluna birmənalı olmayan münasibəti də geniş tədqiq edilib.

Ən vacib detallardan biri isə təhsildə repetitorların rolu ilə bağlı olub. Məlum olub ki, sorğuda iştirak edən abituriyentlərin 86 faizi repetitor xidmətindən istifadə edib, 8 faizi imtahanlara məktəbdə, 6 faizi isə özünün hazırlaşdığını bildirib. Fikri soruşulan abituriyentlərin 60 faizi qəbul imtahanlarının, 30 faizi isə buraxılış imtahanlarının çətin olduğunu ifadə edib. Onların 54 faizi açıq tipli suallarla bağlı çatışmazlıqlara diqqət çəkib. Əsas narahatlıq doğuran məqamlardan biri kimi isə yazı tipli tapşırıqların yoxlanılması proseslərində problemlər, xarici dillər üzrə dinləmə qurğusunun tətbiqindəki çatışmazlıqlar göstərilib.

Təhsil ekspertləri isə böyük müzakirə doğuran bir məsələyə diqqət çəkirlər ki, bu il balların aşağı düşməsi ətrafında ajiotaja ehtiyac yoxdur, bu, yeni modelə keçidlə əlaqədar müvəqqəti məsələdir. İmtahanda iştirakla bağlı ödənişin məbləği 60 faizdən çox respondentə görə yüksəkdir. Sorğunun nəticələri və müşahidələr də göstərir ki, abituriyentlərin imtahana mənəvi-psixoloji cəhətdən hazırlaşmasında valideynlərin (45 faiz) və müəllimlərin (33 faiz) rolu böyükdür.

Ümumi fikrə görə, orta məktəblərin tədris proqramlarında, kurikulumların mahiyyətinin mənimsənilməsində, dərsliklərin yazılmasında ciddi problemlər mövcuddur. Hesabatdan çıxan nəticəyə görə, buraxılış və ali məktəblərə qəbul imtahanlarında bu il tətbiq edilən yeni model ilə bağlı keçirilən sosioloji sorğunun nəticələri bir daha sübut etdi ki, hər bir yenilik cəmiyyət tərəfindən, adətən, birmənalı qarşılanmır və istər-istəməz müəyyən problemlərin ortalığa çıxması ilə müşayiət olunur. Bunun ilkin səbəbləri sırasında cəmiyyətin bu yeniliklər haqqında məlumatlılıq səviyyəsinin azlığı gəlirsə, yeniliklərin cəmiyyətin üzvləri tərəfindən mənimsənilməsi, onlar üçün anlaşıqlı olması, hətta, əksinə, mənimsəməyə cəhdin azlığı (bəzən asan yola üz tutulması) da vacib məqamdır. Yeni tədris proqramının səmərəli olması üçün müəllimlərlə işləmək, onlara treninq və təlimlər keçmək lazımdır. Aparılacaq tədqiqatlar və monitorinqlər nəticəsində proqramın harada və niyə səmərə vermədiyini müəyyənləşdirmək lazımdır.

Müşahidələr göstərir ki, bu il Apelyasiya Komissiyasına müraciət edənlərin sayı əvvəlki illərlə müqayisədə çoxdur. Üstəlik, apelyasiyada abituriyentlərin haqlı çıxma halları da bu il daha çox müşahidə olunub. Xüsusilə açıq tipli tapşırıqların bəzilərinin DİM-in markerləri tərəfindən qiymətləndirilməsindən sonra ortaya çıxan bəzi xətalar imtahan verəndə imtahan götürən müəssisəyə qarşı inamı istər-istəməz azaldır. Maraqlıdır, respondentlərin 22 faizi bu fikirdədir ki, buraxılış və qəbul imtahanlarının yeni modeli təkmilləşdirilməlidir. 53,5 faiz respondent imtahanların əvvəlki model üzrə keçirilməsinin, 4,5 faiz test üsulu ilə qəbulun ləğv olunmasının, 8 faiz imtahanların bir dəfə keçirilməsinin tərəfdarı kimi çıxış edib. Ekspertlər arasında da bu məsələ ilə bağlı fikir ayrılığı müşahidə edilir. Belə ki, onların bir qismi ikipilləli imtahan modelini qəbul edir, lakin bu il keçirilən imtahanların nəticələrini ətraflı təhlil edib çatışmazlıqları aradan qaldırmaq, bu sahədə axtarışlar və islahatlar aparmaqla yeni modeli daha da təkmilləşdirmək haqqında düşünürlərsə, digərləri təkpilləli, yəni, yalnız qəbul imtahanlarının keçirilməsinin tərəfdarı kimi çıxış edirlər.

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikasının prokurorluq orqanları korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması istiqamətində fəaliyyətini gücləndirməklə yanaşı, bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsini daim diqqətdə saxlayır.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə BMT-nin Korrupsiya Əleyhinə Konvensiyasına Tərəf Dövlətlərin Assambleyasının 8-ci sessiyası işə başlayıb.

Ayrı-ayrı ölkələrin dövlət rəsmilərinin və nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxslərinin qatıldıqları tədbirdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, reallaşdırılan islahatlar və ortaya çıxan problemlər müzakirə olunub.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası Prokurorluğunun, Xarici İşlər və Daxili İşlər nazirliklərinin əməkdaşlarından ibarət nümayəndə heyəti təmsil edib.

Konfransda çıxış edən Kamran Əliyev ölkəmizdə korrupsiyaya qarşı mübarizənin Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tərəqqi strategiyasının mühüm hissəsini təşkil etdiyini, aşkarlıq və şəffaflıq prinsiplərinin ölkəmizin iqtisadi-sosial inkişaf siyasətinin mərkəzində durduğunu bildirib. Nümayəndə heyətinin rəhbəri ölkəmizdə korrupsiyaya qarşı mübarizə tədbirləri, korrupsiyanın qarşısının alınmasında "ASAN xidmət" modeli, bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti, ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri barədə geniş məlumat verərək, Azərbaycanın BMT-nin Korrupsiya Əleyhinə Konvensiyasının implementasiyası ilə bağlı I mərhələni yüksək nəticələrlə tamamlamasını, hazırda isə II icmal mərhələsinin uğurla davam etdirildiyini vurğulayıb.

Xarici İşlər Nazirliyinin Beynəlxalq təhlükəsizlik idarəsinin rəisi Yalçın Rəfiyev Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatı adından çıxış edərək Hərəkat üzvlərinin korrupsiyanın qarşısının alınmasında və korrupsiyaya qarşı mübarizədə BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına verdiyi önəm, korrupsiyanın təhlükəsizlik, davamlı inkişaf və insan hüquqlarının qorunmasına mənfi təsiri, eləcə də innovativ yanaşmalar və texnoloji yeniliklərdən istifadə ilə korrupsiyaya qarşı mübarizənin əhəmiyyəti barədə konfrans iştirakçılarını məlumatlandırıb.

Konfrans çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Tunisin Korrupsiyaya Qarşı Mübarizə üzrə Milli Xidmətinin rəisi Çavki Təbibin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib, cinayətkarlığa qarşı mübarizənin müxtəlif aspektləri, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə edilib. Bu sahədə səylərin birləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi ilə Tunis Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Milli Xidməti arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Bundan başqa, Azərbaycan nümayəndə heyəti ilə Beynəlxalq Antikorrupsiya Akademiyasının icraçı direktoru xanım Kristian Pohn-Hufnaqlın rəhbərlik etdiyi nümayəndə heyəti arasında ikitərəfli görüş keçirilib. Azərbaycanın təşkilatın ən fəal üzvlərindən olduğunu qeyd edən K.Pohn-Hufnaql ölkəmizin qurumun fəaliyyətinə verdiyi töhfələrə görə minnətdarlığını bildirib.

Kamran Əliyev Azərbaycanın qurumun akademik proqramlarında geniş təmsil olunduğunu, bunun əməkdaşların peşəkarlığının artırılmasında mühüm rol oynadığını bildirib. Görüşdə, həmçinin akademiyanın antikorrupsiya təlimləri üzrə magistr proqramının növbəti modulunun 2020-ci ilin aprelində Bakıda keçirilməsinə dair müvafiq sənəd imzalanıb.

Bununla yanaşı, nümayəndə heyətinin üzvləri tədbir çərçivəsində təşkil olunan müxtəlif iclas və panellərə qatılaraq müzakirələrdə fəal iştirak edib.

Konfransda Azərbaycan nümayəndə heyəti ilə Rusiya, Ukrayna, İtaliya, Monqolustan, Belçika Krallığı, Malayziya və digər ölkələrin, eləcə də bir sıra beynəlxalq təşkilatların nümayəndə heyətləri arasında ikitərəfli və çoxtərəfli görüşlər keçirilərək səmərəli fikir mübadiləsi aparılıb, iştirakçılara ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirləri əks etdirən materiallar təqdim olunub.

Tədbirdə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki səfiri Mahir Əliyev iştirak edib.

# Rusiyada təhsilini başa vuran doqquz məzun Daxili İşlər Nazirliyində müvafiq vəzifələrə təyin olunub

Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) göndərişi ilə Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin xüsusi ali təhsil müəssisələrində təhsillərini başa vuraraq ölkəmizə qayıtmış doqquz məzuna "polis leytenantı" xüsusi rütbəsi verilməklə ixtisasları üzrə müvafiq vəzifələrə təyin olunmalarına dair əmr imzalayıb.



DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu münasibətlə Daxili İşlər Nazirliyində keçirilən tədbirdə general-polkovnik Vilayət Eyvazov Azərbaycanın, eləcə də Rusiya DİN-in xüsusi ali təhsil müəssisələrinin məzunlarının vəzifələrə yerləşdirilmələrinin, gənc kadrların hazırlıq səviyyəsinin artırılmasının, onların peşəkarlığa, dövlətçiliyə, xidməti borca sədaqətə, işgüzarlığa görə vəzifədə irəli çəkilmələrinin, gənc əməkdaşlara lazımi diqqət və qayğı göstərilməsinin DİN rəhbərliyinin daim nəzarətdə saxladığı məsələlərdən olduğunu vurğulayıb. Nazir vətəndaşlara xidmətin şərəfli vəzifə olduğunu, hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının gərgin səyləri hesabına respublikamızda əmin-amanlığın yaradıldığını, cəmiyyət həyatının bütün sahələrində müşahidə edilən hərtərəfli inkişafın əsasında Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin qeyd etdikləri kimi, məhz sabitlik amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların dövlət başçısı tərəfindən hər zaman yüksək qiymətləndirildiyini gənc zabitlərin diqqətinə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov gənc zabitləri ölkəmizin daxili işlər orqanlarında xidmətə başlamaları münasibətilə təbrik edərək çətin və şərəfli xidmətlərində onlara uğurlar arzulayıb, daim polis adını uca tutmalarını, bilik və təcrübələrini artırmalarını, öz üzərlərində işləmələrini, müasir informasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanmalarını, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ yanaşmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

# Səadət YUSİFOVA: "Bu gün insan kapitalına investisiya dövlətin ən gəlirli investisiyalarından biri hesab edilir"

"Qlobal informasiya mühitində insan kapitalı iqtisadi tərəqqi və inkişafın əsas hərəkətverici qüvvələrindən biri hesab olunur. Bu gün insan kapitalına investisiya dövlətin ən gəlirli investisiyalarından biri hesab edilir. Uzunmüddətli perspektivdə insan kapitalı sosial kapitala çevrilir. Bu isə öz növbəsində, iqtisadi inkişafa gətirib çıxarır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova "Yeni imtahan modeli: islahatlar, nəticələr, gözləntilər" mövzusunda keçirilən konfransda söyləyib.

Prezident Administrasiyasının rəsmisi deyib: "Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə öz çıxışlarında qeyd edib ki, iqtisadiyyatı irəli aparan, ölkənin uğurunu nümayiş etdirən onun təbii ehtiyatları deyil, insanları, təhsili, əhalisinin intellektual səviyyəsidir".

Səadət Yusifova bildirib ki, bilikli, savadlı, vətənə bağlı, dünyaya açıq gənclik müstəqilliyin başlıca təminatıdır. Müasir dünyada bilik və yeni texnologiyalar olmasa, uğur qazanmaq mümkün deyil. Bu gün qlobal anlamda nəsillərin dəyişməsi prosesi gedir. Artıq internetsiz dünyanı təsəvvür edə bilməyən "Zed nəsli" yetişir. Bu nəsil qloballaşma və postmodernizm dövrünü təmsil edən ilk rəqəmsal nəsildir. Onların həyata və dünyaya baxışları internetə qədərki dövrün nəsillərindən köklü sürətdə fərqlənir. Onlar üçün internetdən və rəqəmsal texnologiyalardan istifadə, sadəcə, həyat tərzidir. Onların təhsilə münasibəti, özlərini ifadə üsulları da köklü fərqlənir. Bu isə təbii olaraq təhsil sistemində də köklü dəyişiklikləri, yeni yanaşmaları şərtləndirir. Bu baxımdan sabahın təhsil sistemi rəqəmsal iqtisadiyyatın inkişafına, yeni orta sinfin formalaşmasına yönələcək. Artıq bu gün gələcəyin bilik cəmiyyətinə xas olan təhsil sisteminin əlamətləri özünü göstərir.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, passiv təhsildən aktiv təhsilə keçid 2030-cu ilə qədər yekunlaşmalıdır və bu, tipik təhsil modelinə çevriləcək. Qarışıq və mobil təhsil gələcəyin ali təhsil müəssisələrinin rəqabətqabiliyyətliliyini və uğurunu müəyyənləşdirən əsas amillərdən biri olacaq. Böyük həcmdə informasiyanın əlçatan olması, informasiya ilə işləmək və onu seçmək vərdişi tənqidi düşüncənin inkişaf etdirilməsini tələb edəcək. İnformasiya və texnoloji fonun sürətli dəyişməsi nəticəsində təhsil fasiləsiz xarakter alacaq.

Səadət Yusifova deyib ki, gələcək təhsil işə götürənlər arasında distansiyanı da aradan qaldıracaq. Təhsil xidmətləri bazarı daha çevik olacaq. Akademik və texnoloji mühitin sintezi baş verəcək. Böyük korporasiyalar dövlətin vasitəçiliyi olmadan müəyyən peşə və vərdişləri sifariş verəcək. Kollektiv internet tələb olunan təşkilatlar peşəkar birliklər yaratmaqla ənənəvi universitetlərə rəqabət təşkil edəcək. O vurğulayıb ki, iqtisadi potensialını gücləndirməyi hədəfləyən dövlətlər insan kapitalının formalaşmasında aparıcı rolunu qoruyub saxlamalıdır.

Şöbə müdirinin müavini, həmçinin qeyd edib ki, təhsil sistemində, xüsusilə qəbul imtahanlarında rəqəmsal texnologiyalardan istifadə ilə bağlı Azərbaycanın böyük təcrübəsi var. Azərbaycanın təhsil sistemində texnoloji yeniliklərin, innovativ prinsiplərin tətbiqi, biliklərin qiymətləndirilməsi mexanizmlərinin daha da təkmilləşdirilməsi dinamik xarakter daşıyır. Azərbaycanın müasir təhsil sistemi yaddaş məktəbindən təfəkkür məktəbinə keçidi özündə ehtiva edir. Buraxılış və qəbul imtahanlarında yeniliklər də məhz bu kontekstdə nəzərdən keçirilməlidir.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, dekabrın 18-də Masallı, Balakən, Göygöl, İsmayıllı və Tovuz rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerində həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanda sosial-iqtisadi sahədə inqilabi islahatlar həyata keçirilməkdədir. Bu islahatlar, ilk növbədə, əhalinin rifahının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet olacaq. Bu məqsədlə 2019-cu ilin əvvəlində dövlət başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paket üzrə isə sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırılıb, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən pensiyaların artımı 750 min nəfərə şamil olunub. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi ümumilikdə 4,2 milyon vətəndaşı əhatə edir. Minimum pensiya 72 faiz artırılıb. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə 1,3 milyon insanı əhatə edir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycan Prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanıb. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi bundan yararlana biləcək.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# İlahiyyat İnstitutu ilə Türkiyə universitetləri arasında əməkdaşlıq müzakirə edilib

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Mübariz Camalov və İlahiyyat fakültəsinin dekan müavini Kövsər Tağıyev Türkiyə universitetlərinin elektron təhsil sistemini öyrənmək üçün sözügedən ölkədə səfərdə olublar.





Onların Türkiyəyə səfəri çərçivəsində İstanbulda Marmara, "29 Mayıs" və İstanbulun digər universitetlərinin, Ankarada Ankara Universitetinin, Sivasda Cümhuriyyət Universitetinin, Konyada Səlcuq və Nəcməddin Ərbakan universitetlərinin elektron təhsil sistemi ilə əyani və nəzəri tanışlıq həyata keçirilib.

Görüşlərdə ali təhsil müəssisələri arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması; birgə layihələrin reallaşdırılması; tədris metodu üzrə elmi məlumatların qarşılıqlı ötürülməsi; təcrübə və araşdırma; tədris prosesinin təşkili ilə bağlı təcrübənin bölüşdürülməsi; alim və mütəxəssislərin iştirakı ilə konfransların, "dəyirmi masa"ların keçirilməsi; professor-müəllim heyəti və doktorantlar üçün qarşılıqlı akademik səfərlərin, həmçinin tələbə mübadiləsi və digər məsələlərin həyata keçirilməsi müzakirə edilib.

Qeyd edək ki, Aİİ öz fəaliyyətində beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verir. Səfərin məqsədi ali təhsilin müasir tələblər səviyyəsinə qaldırılması üçün dünyanın digər qabaqcıl universitetləri ilə yanaşı, Türkiyə ali məktəblərinin təcrübəsindən yararlanmaq, universitetlərarası əlaqələrin genişləndirilməsi, tədrisin elektronlaşdırılması sahəsində qazanılmış nailiyyətlərin mənimsənilməsidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İstehsal da artır, tələbat da

## *Azərbaycan elektrik enerjisinin idxalçısından ixracatçısına çevrilmişdir*

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı enerji potensialının güclənməsi ilə bərabər, enerji istehlakına tələbatın getdikcə artmasını qeyd edərək xatırlatmışdır ki, "Azərbaycan" İstilik Elektrik Stansiyasının təmir-bərpa işlərinin təmin edilməsi barədə özü göstəriş vermişdir. Təməli Ulu Öndər tərəfindən qoyulan stansiyada və Mingəçevir Su Elektrik Stansiyasında 1600 nəfərdən çox adam işləyir. Burada 5 blokda yenidənqurma işləri artıq başa çatmış, 500 kilovoltluq açıq paylayıcı qurğu tamamilə yenidən qurulmuş, 330 kilovoltluq paylayıcı qurğuda isə işlərin 80 faizdən çoxu icra olunmuş, qəzaların qarşısının alınması üçün ciddi tədbirlər görülmüşdür.



Prezident İlham Əliyev keçən ilin yayında baş vermiş qəzanı və onun ölkəyə həddən artıq baha başa gəldiyini də xatırlatmışdır: "Ona görə strateji obyektimiz olan Mingəçevir Elektrik Stansiyasının bərpası və qəzadan özümüzü sığortalamaq məsələləri "Azərenerji"nin yeni rəhbərliyi qarşısında əsas vəzifə kimi dayanmışdır. Eyni zamanda 400 meqavat gücündə olan "Şimal-2" stansiyasının məhz Bakıda inşa edilməsi bizim enerji generasiya güclərimizin ölkə ərazisində daha bərabər şəkildə paylanmasına xidmət göstərir".

Dövlət başçısının diqqət ayırdığı sahələrdən biri də bərpaolunan enerji növlərinin yaradılması, bu sahəyə investorların cəlb edilməsində şəffaflığın təmin olunmasıdır: "...sevindirici hal ondan ibarətdir ki, Azərbaycana investisiya qoymaq istəyən şirkətlər öz aralarında rəqabət aparırlar. Vaxtilə biz investorları inandırmağa çalışırdıq ki, gəlib vəsait qoysunlar. Ancaq indi investorlar özləri maraq göstərirlər. Biz tenderin qalibini açıq və şəffaf tender şərtlərinə uyğun müəyyən etməliyik. Bu, çox sevindirici haldır. Çünki söhbət təqribən 400-500 meqavat gücündə bərpaolunan elektrik stansiyalarının inşasından gedir".

Yeri gəlmişkən qeyd edək ki, hazırda 50 meqavat gücündə Yaşma Külək Elektrik Stansiyası tam gücü ilə işləyir. Stansiyada 2018-ci ildə 60 milyon, 2019-cu ildə 80 milyon kilovat-saat elektrik enerjisi istehsal edilmişdir. Bu günədək təxminən 13-14 milyon kubmetr qaza qənaət edilmişdir. Eyni zamanda Prezidentin tapşırığına əsasən Bakı-Quba magistralının sağ tərəfində - təzə yolla köhnə yolun arasında 84 meqavat gücündə Şurabad Külək Elektrik Stansiyasının bütün layihə-smeta sənədləri hazırlanmış, torpaqların alınması, ötürmə xətləri məsələləri həll edilmiş, "Vestas" şirkəti bu işə cəlb olunmuşdur.

Dövlət başçısının ölkənin enerji sistemi qarşısında qoyduğu hədəflərin mahiyyətini bir cümlə ilə belə ifadə etmək mümkündür - daxili tələbatın ödənilməsi qədər ixracı da vacibdir: "İxrac da olmalıdır, daxili tələbat da təmin edilməlidir. Ancaq biz hamımız onu da bilməliyik ki, daxili tələbat artır və artacaq. İlk növbədə, artan əhali təbii ki, yeni güclərin işə salınmasını diktə edir, digər tərəfdən, ölkəmizə gələn xarici qonaqlar, onların sayı artıq bu il 3 milyonu keçibdir və təbii ki, bu xidmət sektorunda mövcud olan enerji potensialı daha da artmalıdır və əlbəttə ki, əsas məsələ artan sənayedir".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# İnkişafa, rifaha və mütərəqqi idarəçiliyə xidmət edən islahatlar

*Əvvəli 1-ci səh.*

İl ərzində Azərbaycanı xarakterizə edən əsas nailiyyətlərdən biri də həyata keçirilən islahatlardır. Elə buna görə Azərbaycanın yüksəliş nümunəsindən danışarkən hər bir sahədə zamanın nəbzini tutan islahatların aparılması, fəaliyyət dinamizminin təmin edilməsi üçün yeni yanaşmaların tətbiqi daha çox diqqəti cəlb edir. Respublikamızın ildən - ilə artım nümayiş etdirən inkişaf göstəriciləri islahatların vacibliyinin və müsbət nəticəsinin təsdiqidir.

*"2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır".* Bu fikirləri Prezident İlham Əliyev hələ bu ilin fevral ayında bildirmişdi. Və elə fevral ayında imzaladığı müvafiq fərman və sərəncamlar göstərdi ki, dövlət başçısının fəaliyyətinin və islahatların əsas qayəsini insan amilinin uca tutulması təşkil edir. Çünki insanın həyatını yaxşılaşdırmağa xidmət etməyən heç bir iqtisadi inkişaf öz məqsədinə, yüksək amallarına nail ola bilməz. Bu mənada vətəndaşların sosial rifahının yaxşılaşdırılması, həyat tərzinin müsbət mənada dəyişdirilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsas məqsədlərindən biridir.

Bütövlükdə yeni iqtisadi islahatlar nəticəsində Azərbaycanın maliyyə imkanları son dövrlərdə əhəmiyyətli dərəcədə artıb. Maliyyə imkanlarının artması isə digər məsələlərlə yanaşı, vətəndaşların sosial rifahının yüksəldilməsinə də real zəmin yaradır. Ona görə də fevral və iyun aylarında Prezident İlham Əliyevin imzaladığı sosialyönümlü fərman və sərəncamlar 4 milyondan artıq vətəndaşı əhatə etdi. Bütün bunlar göstərdi ki, Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər uğurla davam etdirilir.

### Cəmiyyət islahatları dəstəkləyir və təqdir edir

İnkişaf prosesləri dövlət idarəetməsinin də təkmilləşdirilməsini əhatə edir. Məhz bundan irəli gələrək Prezident İlham Əliyevin islahatların kompleks şəkildə aparılmasını, struktur və kadrların yenilənməsini vacib sayır. Təcrübə göstərir ki, təkmil və mütərəqqi idarəçilik sistemini formalaşdırmaq mümkün olmazsa, qarşıya qoyulan vəzifələr də yarımçıq qalar. Çünki belə olduğu tərzdə bir çox müəyyən olunmuş iqtisadi və siyasi vəzifələr yerinə yetirilməz. Hər bir inkişaf etmiş dövlətin tarixi sübut edir ki, onun yüksəlişinə uyğun olaraq idarəetmə aparatı da daim yenilənib. Çünki inkişaf dövlət idarəçiliyi sisteminin səmərəliliyinin yüksəldilməsini, çevik və məqsədyönlü fəaliyyət göstərən idarəetmə strukturunun formalaşdırılmasını tələb edir.

Bu prosesə isə hələ ilin əvvəllərindən start verilib. Belə ki, yanvar ayında bir sıra dövlət orqanlarında struktur islahatları həyata keçirildi. Mərkəzi icra hakimiyyəti orqanlarını əhatə edən qurumların bəziləri ləğv edildi, bəzilərinin əsasında yeniləri yaradıldı. Aprel ayından isə Prezidentin müvafiq fərmanı ilə dövlət hakimiyyətinin əsas qollarından biri olan məhkəmə-hüquq sistemində ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə yeni islahatlara başlanıldı.

Dövlət idarəetməsinin icra hakimiyyəti sistemində islahatlar davamlı xarakter alıb. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Nazirlər Kabinetində, yerli icra hakimiyyəti orqanlarında, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmaqdadır.

İslahatlar həm də qanunverici orqanı əhatə edir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə fevralın 9-da Milli Məclisə seçkilər keçiriləcək. Təbii ki, Milli Məclis də ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi və dərinləşməsi prosesindən kənarda qala bilməzdi.

Dövlət hakimiyyətinin bütün qolları idarəetmənin sosial-siyasi funksiyası olub, ictimai həyatın bütün sferalarının tənzimlənməsində, davamlı inkişafın, yüksək rifah və məmnunluq səviyyəsinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Ölkədə həyata keçirilən yeni islahatlar da məhz bu məqsədlərə, idarəetmədə keyfiyyətin və səmərəliliyin daha da artırılmasına xidmət edir. Məqsəd həm də idarəetmənin cəmiyyətdə formalaşan yeni çağırışlara və ölkədə baş verən pozitiv dəyişikliklərə adekvat uyğunlaşmasını təmin etməkdir. Bu baxımdan yeni islahatlar dövlət hakimiyyəti idarəetməsini inkişafın yeni mərhələsinə uyğunlaşdırır. Ən əsası isə odur ki, cəmiyyət islahatları dəstəkləyir və təqdir edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Neftdən əldə olunan gəlirlər Azərbaycanın ümumi inkişafını təmin edir

2019-cu ildə "Əsrin müqaviləsi"nin 25 illiyi təntənə ilə qeyd olundu. Bu şanlı yubiley və Neftçilər Günü münasibətilə sentyabrın 20-də Heydər Əliyev Mərkəzində mərasim keçirildi. Tədbirdə Prezident İlham Əliyev iştirak etdi və nitq söylədi. Mərasimdə, eləcə də Azərbaycanın beynəlxalq layihələrdəki tərəfdaşlarının, ölkə neftçilərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş hörmətli qonaqlar iştirak etdilər.

1994-cü il sentyabrın 20-də Bakıda Qərbin bir sıra tanınmış neft şirkətləri ilə "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi üçün bağlanan saziş Azərbaycanın yeni tarixinin şanlı səhifəsini açdı. "Əsrin müqaviləsi" kimi indi bütün dünyada tanınan bu kontraktın imzalanması ilə ölkəmiz yeni inkişaf erasına daxil oldu. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən neft strategiyası Azərbaycanı lider ölkələr sırasına yüksəltdi.

AÇG-nin işlənməsi Azərbaycanın neft və qaz sənayesinin yeni tarixinin əlamətdar bir səhifəsidir. Azərbaycanı yenidən dünyanın əsas enerji təchizatçılarından birinə çevirməklə ölkə iqtisadiyyatına təkan verən nəhəng dəyişikliklər məhz bu sazişlə başlandı.

1997-ci ilin noyabr ayında ilk hasilat əldə olunandan 2019-cu ilin ikinci rübünün sonunadək AÇG-dən 488 milyon ton (3,6 milyard bareldən artıq) neft çıxarılıb. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəməri ilə dünya bazarlarına təqribən 3,3 milyard barel ACG nefti daşınıb. 2006-cı ildən həmin vaxtadək ACG nefti ilə yüklənmiş 4300 tanker Ceyhan terminalından dünya bazarlarına yola salınıb.

Hasilatın başlanğıcından 2019-cu ilin ikinci rübünün sonunadək AÇG-dən Azərbaycana təmənnasız olaraq 44 milyard kubmetrdən artıq səmt qazı təhvil verilib.

Layihə başlanandan 2019-cu ilin ortalarınadək əsaslı xərclər 36 milyard dollar təşkil edib. Əməliyyatçı BP şirkəti və onun AÇG-dəki tərəfdaşları Azərbaycanda sosial layihələrə 84 milyon dollar xərcləyiblər.

AÇG layihəsi çərçivəsində bir platforma - "Çıraq" platforması yenidən qurulub, yeddi təzə platforma tikilib, dünyanın ən böyük neft-qaz terminallarından biri olan Səngəçal terminalı inşa edilib, Xəzər dənizinin dibində mürəkkəb sualtı boru xətləri şəbəkəsi yaradılıb. AÇG-də hasilat quyularının sayı 124-ü ötüb.

Layihənin yüksək texniki təhlükəsizlik nailiyyətləri var. Belə ki, AÇG çərçivəsində 140 Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi və dəniz, quru və sahilyanı ərazilər üzrə 266 monitorinq tədqiqatları aparılıb.

"Əsrin müqaviləsi"nin uzaqgörənliklə seçilmiş bir strategiyanın başlanğıcı olduğunu təsdiqləyən faktlardan biri də odur ki, bu kontrakdan sonra Azərbaycan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalayıb.

Ötən dövr AÇG-nin yeni potensialını da üzə çıxardı. Belə ki, ilkin hesablamalara görə, "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin çıxarıla bilən neft ehtiyatı 511 milyon ton idi. Sonralar yeni qiymətləndirmələrə əsasən, neft ehtiyatının 1,072 milyard ton həcmində olduğu müəyyən edildi. 2017-ci ilin sentyabrında AÇG üzrə yeni sazişin imzalanması, yəni "Əsrin müqaviləsi"nin 2050-ci ilin əvvəlinədək uzadılması buna əsaslanıb. Həmin vaxtadək AÇG-yə 40 milyard dollardan çox sərmayə qoyulması nəzərdə tutulub. Xarici investorlar bu müddət ərzində ARDNF-yə (Azərbaycan Respublikası Dövlət Neft Fondu) 3,6 milyard dollar həcmində bonus ödəyəcəklər. 2018-ci ilin əvvəlində 450 milyon dollardan ibarət ilk bonus həyata keçirilib.

Müqavilənin uzadılmasının ardınca, 2019-cu il aprel ayının 19-da AÇG-nin işlənməsinin növbəti addımı olan 6 milyard dollarlıq yeni layihəyə - "Azəri-Mərkəzi-Şərqi" (ACE) layihəsinə sanksiya verilib. Bu layihə hazırda tikinti mərhələsindədir və ilk neftin 2023-cü ildə alınacağı gözlənilir.

"Əsrin müqaviləsi"nin 25 illik yubileyi münasibətilə keçirilən mərasimdə Prezident İlham Əliyev demişdir: "Bu, dünya təcrübəsində özünə layiqli yer tutan kontraktdır. Çünki həm dövlətin, həm də investorların maraqları təmin olundu. Eyni zamanda neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı. Biz dünyada neft sənayesində gedən işlərdən xəbərdarıq. Bir çox hallarda neft xoşbəxtlik gətirmir, faciə gətirir, qarşıdurma gətirir, qeyri-bərabərlik gətirir, ədalətsizlik gətirir. Azərbaycanın timsalında neft xeyir gətirib. Çünki neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu. Sosial məsələlərin həlli üçün şərait yaratdı. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün imkan yaratdı. Müasirləşən şəhərlər, abadlaşan kəndlər, ölkədə gedən quruculuq, abadlıq - bütün bunların təməlində bizim neft sənayemiz dayanır".

"Əsrin müqaviləsi", həmçinin mükəmməl bir tərəfdaşlıq formatının təməlini qoydu. Azərbaycanın yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq əlaqələri növbəti böyük layihələrin həyata keçirilməsinə imkan verdi. Hazırda ölkəmizin təşəbbüsü və aparıcı qüvvəsi olduğu 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin çəkilişi sona yaxınlaşır. Bu da "Əsrin müqaviləsi"ndən başlanan yolun uğurla davam etdiyini təsdiqləyən önəmli faktlardan biridir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Seçicilər daha fəal insanları bələdiyyəyə seçmək arzusundadırlar

Hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, dövlət və cəmiyyətin idarə olunmasının səmərəliliyinin artırılması istiqamətində atılan addımlar bələdiyyələrin fəaliyyətində öz ifadəsini tapmaqla yanaşı, respublikamızda yerli idarəetmə orqanlarının işinin təşkilinə mühüm töhfələr verir. Artıq xeyli vaxtdır ki, fəaliyyət göstərən bu qurumun daha da təkmilləşdirilməsi istiqamətində dövlətin atdığı addımları xalq razılıqla qarşılayır. Odur ki, hər dəfə bələdiyyə seçkiləri keçirilərkən insanlar fəallıq göstərir, daha layiqli namizədlərin seçilməsinə çalışırlar.

Hazırda respublikamız növbəti bələdiyyə seçkiləri ərəfəsindədir. Seçkilərin mütəşəkkil və demokratik keçirilməsi üçün ciddi hazırlıq işləri görülüb. Goranboy rayonundakı 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsində də bunun şahidi olduq. Dairə Seçki Komissiyasının sədri Faiq Məhərrəmov dedi ki, məntəqələr seçkilərə tam hazırdır. Bütün məntəqələr rabitə və digər texniki avadanlıqla təmin olunmuş, 6 məntəqədə veb-kamera quraşdırılmışdır.

Öyrəndik ki, seçki günü 37 seçki məntəqəsində 23 min 977 nəfər seçici səs verməlidir. Onların 2 min 878 nəfəri Tərtərdədir. Seçki günü namizədliyi qeydə alınmış 484 nəfər 161 yer uğrunda mübarizə aparacaqdır. Namizədlərin hamısına təbliğat aparmaq üçün eyni şərait yaradılmışdır. Onların arasında Yeni Azərbaycan, Müasir Müsavat, Ümid, Bütöv Azərbaycan, Ana Vətən və Azərbaycan Xalq Cəbhəsi partiyalarından nümayəndələr də var. Hər bir namizədin təbliğat kampaniyasına diqqətlə yanaşılmış, onlar üçün həm qapalı, həm də açıq yerlər ayrılmışdır. Seçkiləri qeydə alınmış 328 nəfər müşahidə edəcəkdir.



Dairəni əhatə edən məntəqələrdə seçici siyahıları dəqiqləşdirilmişdir. Seçki günü məntəqələrə gələ bilməyən xəstələrin də siyahısı tərtib edilmiş və onların seçkilərdə iştirakını təmin etmək üçün müvafiq tədbir görülmüşdür.

Bu dəfə 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsini əhatə edən məntəqələrdə 293 nəfər ilk dəfə səs verəcəkdir. Onlarla keçirilən görüşlərdə dövlətin gənclər siyasəti barədə ətraflı söhbətlər aparılmış, onların seçkilərdə fəal olması üçün hüquq və azadlıqlarından danışılmışdır.

Seçkilərdə iştirak edəcək ahıl insanlar da diqqətdə saxlanılır. Belə insanlar 785 nəfərdir. Onlardan biri Tatarlı kəndinin 82 yaşlı sakini Samara Əsgərovadır. O, yaşadığı kənddəki 3 saylı seçki məntəqəsində səs verəcək. Söhbət zamanı Samara Əsgərova dedi ki, var olsun dövlətimiz. İndi hər yerdə sabitlik və əmin-amanlıqdır. Bu sabitliyi yaradan dövlət başçısıdır. Buna görə ona minnətdarlığımı bildirir və sağ ol deyirəm.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Məntəqələr seçkilərə hazırdır



Bələdiyyə seçkilərinə Masallı rayonunda da hazırlıq işləri başa çatdırılmışdır. Rayonda 70 saylı şəhər və 71 saylı kənd Dairə Seçki komissiyaları fəaliyyət göstərir.

70 saylı şəhər seçki dairəsi üzrə 11 bələdiyyəyə 117 nəfər üzv seçilməlidir. Qeydə alınan namizədlərin sayı isə 273 nəfərdir. Onların 148 nəfəri namizədliyini özü irəli sürmüş, qalanları YAP, AVP, BQP və Ümid partiyaları tərəfindən göstərilmişdir. Namizədlərə seçicilərlə görüşmək üçün hər cür şərait yaradılmış, qapalı və açıq yerlər ayrılmışdır. Məntəqələrin qarşısında qoyulmuş təşviqat lövhələri də bu baxımdan əhəmiyyətli rol oynayır. Seçicilərə kampaniyada fəal iştirak etmələri üçün bildirişlər çatdırılmışdır. Dairənin 43 məntəqəsində 39 min 953 nəfər seçici səs verməlidir. Onların 466 nəfəri səsvermədə ilk dəfə iştirak edənlərdir. Ən yaşlı seçici 100 yaşlı Güllü İbişovadır.

DSK-nın sədri İlkin Hüseynov dedi ki, seçkilərin gedişini izləmək üçün 454 müşahidəçi qeydə alınmışdır. Məntəqələrin hamısı rabitə, texniki avadanlıqlar və təşviqat vasitələri ilə təmin olunmuşdur.

70 saylı DSK-nın Masallı şəhərindəki şəhid Rafiq Əlihəsənovun adını daşıyan tam orta məktəbdəki 5 saylı seçki məntəqəsində də olduq. Burada 1282 nəfər seçici səs verməlidir. Ən yaşlı seçicilərdən Fatı Əliyevanın 95, Qulamhüseyn Hüseynovun 94 yaşı var. Seçkinin şəffaf keçirilməsi məqsədilə burada veb-kamera quraşdırılıb.

71 saylı Masallı kənd Dairə Seçki Komissiyası isə rayonun Bədəlan kəndində yerləşir. Burada 42 məntəqə üzrə 35 min 233 nəfər seçici var. Onların 636 nəfəri ilk dəfə səs verənlərdir. Ən yaşlı seçici Qızılağac kəndinin sakini 101 yaşlı Ağanənə Abbasovadır. 80-100 yaş arasında olan seçicilərin sayı isə 862 nəfərdir. Bu dairə üzrə 12 bələdiyyəyə 124 nəfər üzv seçilməlidir. Mandat almaq üçün isə 2 min 93 nəfərin namizədliyi irəli sürülmüşdür. Onların əksəri YAP, Sosial Rifah, Ana Vətən, Böyük Qurtuluş, Bütöv Azərbaycan Xalq Cəbhəsi, Vətəndaş Birliyi, Demokratik İslahatlar, Azərbaycan naminə Alyans, Aydınlar partiyalarının namizədləridir. 163 nəfər isə öz təşəbbüsü ilə namizədliyini qeydə aldırmışdır. Dairə üzrə bildirişlərin hamısı seçicilərə paylanılıb. Məntəqələrdə 5 veb-kamera quraşdırılıb. 457 nəfər müşahidəçi qeydiyyatdan keçib. Hazırda təşviqat kampaniyası davam edir.

Dairənin 11 və 12 saylı məntəqələrində də hazırlığın vəziyyəti ilə tanış olduq. Tam hazır vəziyyətə gətirilən 11 saylı Bədəlan kənd seçki məntəqəsi üzrə seçicilərin sayı 972 nəfərdir. 12 saylı Aşırlı kənd məntəqəsi üzrə 832 nəfər səs verəcək. 32 nəfəri səhhətləri ilə bağlı ərizə ilə müraciət ediblər. Seçki günü onların səsvermədə iştirakını təmin etmək üçün məntəqə üzvü bir nəfər müşahidəçi ilə səsvermə qutusunu evlərinə aparacaqlar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Hədəf demokratik və ədalətli seçki keçirməkdir



93 və 94 saylı dairə seçki komissiyaları Bərdə rayonunda fəaliyyət göstərir. 93 saylı dairə seçki komissiyası 1 şəhər, 25 kənd bələdiyyəsini əhatə edir. Dairə Seçki Komissiyasının sədri Şakir Əliyev söhbət zamanı bildirdi ki, bələdiyyə üzvlüyünə dairə üzrə 493 nəfərin namizədliyi qeydə alınmışdır. Onlardan 230-u bələdiyyə üzvü seçilməlidir.

İndi təbliğat və təşviqat kampaniyasının qızğın çağıdır. Əhalinin gediş-gəlişinin gur olduğu yerlərdə vurulmuş lövhələrdə namizədlərin şəkilləri, platformaları yer alıb. Bütün məntəqələr zəruri avadanlıqlarla, mərkəzi seçki komissiyasının metodiki vəsaitləri, müvafiq qərarları, tövsiyələri ilə təmin olunmuşdur. Seçkinin mövcud qanunvericiliyin tələblərinə uyğun qaydada həyata keçirilməsinə ciddi nəzarət olunur. Buna görə də heç bir neqativ hal müşahidə olunmamış, narazılıq və şikayət qeydə alınmamışdır.

Yolumuzu 8 saylı seçki məntəqəsindən saldıq. Bu məntəqə rayon uşaq-gənclər, idman-şahmat məktəbində yerləşir. Burada da ədalətli və şəffaf seçki keçirilməsi üçün ideal şərait yaradılmışdır. Məntəqə seçki komissiyasının sədri Mehman Quliyev bildirdi ki, biz seçkilərə tam hazırıq. Seçici siyahılarının hazırlanmasına məsuliyyətlə yanaşılmış, ora 1354 nəfərin adı daxil edilmişdir. Şəffaflığın, aşkarlığın təmin edilməsi üçün məntəqədə veb-kamera quraşdırılmışdır. Əsas hədəf seçkilərin demokratik tələblər səviyyəsində, ədalətli keçirilməsinə nail olmaqdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***






# Gənclik






● Gələcəyə dəstək



# Xalq-iqtidar birliyi bugünkü sabitliyin və müstəqilliyimizin əsas təminatıdır



**Müasir dünyada dövlətlərin gücü, onların müstəqillik dərəcəsi daxili sabitliyin, xalq-iqtidar birliyinin səviyyəsi ilə müəyyənləşir. Geosiyasi proseslərin təhlili göstərir ki, hər hansı ölkədə xalq-iqtidar birliyi təmin edilməyibsə, nə zəngin təbii sərvətlər, nə də hansısa xarici maraqlara xidmət edən "dəyərlər" o ölkəni sabit və davamlı inkişaf yoluna çıxara bilməz. Azərbaycanın yeni və ən yeni dövr tarixində baş verən proseslər xalq-iqtidar birliyinin mövcud olmamasının hansı təlatümlərə və faciələrə gətirib çıxardığını göstərmişdir. 1991-1992-ci illərdə ölkədə yaranmış idarəolunmaz vəziyyət, Azərbaycanın dərin böhrana düçar olması, ölkəni xaos, anarxiya, özbaşınalığın bürüməsi məhz xalq-iqtidar birliyinin təmin olunmamasının nəticəsi idi.**

Yalnız görkəmli dövlət xadimi Heydər Əliyev ölkədə xalq-iqtidar birliyini təmin edə bilmişdir. Məhz xalq-iqtidar birliyinin təmin olunması Azərbaycanın həqiqi müstəqillik yoluna qədəm qoymasına şərait yaratmışdır. 2003-cü ildə ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev isə nəinki xalq-iqtidar birliyini möhkəmləndirmiş, həm də bu birliyin təminatçısı və qarantına - hər bir Azərbaycan vətəndaşının Prezidentinə çevrilmişdir. Azərbaycan tarixində İlham Əliyevin liderliyini ən orijinal şəkildə yalnız bu cür ifadə etmək mümkündür.

Dövlət başçısı İlham Əliyevin bütün fəaliyyəti milliyyətindən, dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən, cinsindən asılı olmayaraq hər bir vətəndaşa bərabər, tolerant, səmimi yanaşmadan və ən əsası azərbaycançılıq ideologiyasına sadiqlikdən xəbər verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk dəfə ali vəzifəyə seçilməsindən keçən dövr ərzində xatırlamalı olduğumuz daha bir məqam var. Ölkənin hər bir vətəndaşını, hətta vətən daşını sevən birinci VƏTƏNDAŞın siyasi olimpin zirvəsinə qalxarkən xalqı qarşısında səsləndirdiyi nitqdə mühüm bir məqam: "Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm".

Bəli, bu, gənc, xarizmatik, praqmatik düşüncəli, işgüzar, xalqına, Vətəninə, millətinə bağlı yeni liderin sadəcə seçimsonrası vədi deyildi. Bu, Azərbaycan dövlətini, dövlətçiliyini möhkəmləndirmək, dünyanın ən inkişaf etmiş ölkələri sırasına çıxarmaq üçün müəyyən edilmiş müdrik siyasi yolun müdrik xalqa açıqlaması idi. Vətəndaşın Prezidenti vətəndaşına hansı yolla gediləcəyini bəyan edirdi.

Ötən illər ərzində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yürüdülən sosial-iqtisadi siyasət nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, regionların inkişafı sürətləndirilmiş, əhalinin rifah halı xeyli yaxşılaşdırılmışdır. Nəticədə Azərbaycan "Doing Business 2019" hesabatında dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilmiş, həmçinin dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Hesabatda Azərbaycan Respublikası 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider olmuşdur.

Məhz ölkə daxilində Prezident İlham Əliyevin liderliyində iqtidar-xalq birliyinin təmin olunması respublikamızın beynəlxalq aləmdə inamla addımlamasına qarant vermişdir. Azərbaycanda mövcud olan xalq-iqtidar birliyi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının hesabatlarında da dəfələrlə əksini tapmışdır. Məsələn, Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda "Siyasətçilərə ictimai etimad" adlanan kateqoriyası üzrə Azərbaycan dünyada əhalinin dövləti idarə edən siyasətçilərə ən çox etimad göstərdiyi 20 ölkədən biri olaraq qiymətləndirilmişdir. Bu göstərici ilə "Böyük İyirmilik" ölkələrinin hər 4-dən 3-nü geridə qoyan Azərbaycan nəinki yerləşdiyi Qafqaz regionunun ölkələrini, ümumilikdə SSRİ-nin dağılmasından sonra müstəqilliyini bərpa etmiş bütün dövlətləri qabaqlamışdır.

Prezident İlham Əliyev 2019-cu il oktyabrın 28-də Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi münasibətilə təşkil edilmiş tədbirdə bu məqama xüsusi toxunaraq demişdir: "Xalqın hökumətə inamına görə indi biz birinci onluqdayıq. Bu, nəyi göstərir? Bunu biz demirik, bunu geniş təhlil aparan dünyanın ən mötəbər qurumları deyir və bu da həqiqətdir. Bizim gücümüzün də mənbəyi budur. Çünki xalq-iqtidar birliyi bizim inkişafımızı şərtləndirir və bu dəstək bizə güc verir ki, biz öz sözümüzü deyək, öz mövqeyimizi müdafiə edək".

Bir dövlətin varlığını beynəlxalq sistemdə təsdiq etməsinin əsas şərtlərindən biri onun daxili və xarici siyasətinin digər bir dövlətin diktəsi ilə deyil, milli maraqların mənafeyi baxımından həyata keçirməsidir. Ötən illər ərzində Azərbaycan təkcə yerləşdiyi Qafqaz geosiyasi məkanında deyil, ümumilikdə bütün dünyada öz siyasi nüfuzunu, müstəqil siyasət yürütdüyünü dəfələrlə təsdiq etmişdir.

Azərbaycan İlham Əliyevin Prezidentliyi dönəmində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, 120 ölkəni öz sıralarında birləşdirən Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışdır. Bütün bu qələbələr sübut edir ki, Azərbaycan dünya xəritəsində nəinki özünə layiq yerini tuta bilmişdir, həm də dünya birliyinin mütləq əksəriyyətinin rəğbətini, hörmətini, inamını qazanmışdır. Bu günlərdə ölkəmizdə keçirilən Dünya dini liderlərinin II Sammiti Azərbaycan dövlətinin və dünyada sülhün və sabitliyin bərqərar olması uğrunda yorulmadan fəaliyyət göstərən Azərbaycan Prezidentinin nüfuzunun göstəricisidir.

Dövlət başçısının xarici siyasətdə nümayiş etdirdiyi qətiyyətin təməlində isə daxili sosial-iqtisadi sabitliyin mövcudluğu, vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi dayanır. Ölkədə bütün sahələrin dinamik inkişafının davamlı xarakter daşıması üçün ilk növbədə təhsilli, savadlı, dünyagörüşlü kadrların yetişdirilməsi əsas şərtlərdəndir. "Biz neft kapitalını insan kapitalına çevirəcəyik" deyən dövlət başçısı İlham Əliyevin bu strateji yanaşmasının bəhrələrini artıq hər birimiz görməkdəyik. Azərbaycanda istedadlı, savadlı, müasir dünyagörüşlü, əxlaqi keyfiyyətləri ilə seçilən gənclər ordusu formalaşıb. Yürüdülən siyasət, yaradılan şərait Azərbaycan vətəndaşına öz bilik və bacarıqlarını ümummilli inkişaf yolunda sərf etməsi üçün geniş imkanlar formalaşdırıb.

Bütün bunlar isə vətəndaşının maddi, mənəvi və fiziki təhlükəsizliyini təmin etməyə qadir olan oturuşmuş dövlətçilik sistemindən xəbər verir. Vətəndaş dövlətini, dövlətçiliyini qorumağı özünə mənəvi borc hesab edir. Bu isə ölkənin birinci VƏTƏNDAŞInın hər bir vətəndaşın Prezidenti olmaq kimi ali idealının reallaşdığını göstərir.

***Elnur KƏLBİZADƏ,***
***AMEA Qafqazşünaslıq İnstitutunun Qafqaz siyasəti şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru***

● Tribuna

# Lider varsa, millət də var

**Əgər bir anlıq tarixi şəxsiyyətlərə nəzər salsaq tərəddüd etmədən deyərdim ki, ilk baxışda əzəmətli, dürüst, məğrur, işıqlı siması ilə canlanan Ümummilli Lider Heydər Əliyevi görəcəyik. Ulu Öndər gəncliyində memar olmaq istəyirdi. İncə ruhu, yaradıb-yaşatmaq istəyi elə o dövrdən özünü biruzə verirdi.**



Dahi şəxsiyyət müasir Azərbaycanın memarı oldu. Həyat yolu isə onu siyasətə yönəltdi. Bu gün fəxrlə Azərbaycan Respublikası deyiriksə, bu böyük rəhbərin xidmətlərinin nəticəsidir. Yaradan hər bir xalqa nəsib olmayan müdrik, uzaqgörən, nəbzi hər zaman xalqı ilə vuran, özünü xalqına həsr edən dahi şəxsiyyəti, Heydər Əliyevi Azərbaycan xalqına ərmağan etdi.

Ulu Öndərin gənc yaşlarında, hələ sovet dönəmində topladığı həyati və siyasi təcrübələri onu geniş dünyagörüşlü, dünyəvi düşüncələrlə zəngin, böyük siyasətçi kimi formalaşdırdı. Tarix kitablarını vərəqlədikcə, onun gördüyü işlərin ardıcıllığını, zəruriliyini, o dövrün çətinliklərinə baxmayaraq necə dəqiq və incə bir xətt üzrə həyata keçirdiyini, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul etdiyini görürük.

Ulu Öndərin natiqliyi, məntiqli nitqi, auditoriyanı ələ almaq bacarığı Azərbaycan gəncliyinə bir məktəbdir. Heydər Əliyev rəssamla rəssam, memarla memar, neftçi ilə neftçi kimi söhbət edirdi. Arxiv videolara baxdıqda təəccüblənməmək olmur. Bir insan bu qədərmi hərtərəfli düşüncəli və məlumatlı ola bilər? Onun vətəninə, dövlətinə, xalqına olan sevgisi Azərbaycan üçün böyük işlər görməyə məcbur edirdi. Azərbaycanın tarixinə, mədəni irsinə, mədəniyyətinə, xalqına olan məhəbbəti, müasirliyə olan rəğbəti ilə, yalnız uğurlu gələcəyi düşünən Ulu Öndər vətənimizi dünyaya tanıtdı. Bunun nəticəsidir ki, bu gün də ölkəmiz inkişafı ilə dünyanın diqqət mərkəzindədir.

Heydər Əliyev elmə, ədəbiyyata və mədəniyyətə daim qayğı göstərmişdir. Onun diqqəti sayəsində 1969-1982-ci illərdə elmin bütün sahələri, mədəniyyətimiz, incəsənətimiz daim inkişafda olmuşdur. Dahi sənətkarlarımız unudulmaz əsərlər ərsəyə gətirmişdirlər.

Bütün həyatını şüurlu şəkildə millətinə, xalqının rifahina, dövlətinin azadlığına və inkişafına həsr edən Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə dünya azərbaycanlılarını bir araya topladı və onlara milli ruh aşıladı. Biz gənclərə Azərbaycanı əmanət etdi. Bu gün Ümummilli Liderin siyasətinin uğurlu davamçısı olan Prezident İlham Əliyevin gənclərlə bir arada olması, onlara göstərdiyi diqqət təqdirəlayiqdir. Azərbaycanın bilikli, yüksək potensiallı, savadlı gənclər ordusu Ümummilli Liderə minnətdardır. Nə qədər ki Azərbaycan və Azərbaycan xalqı var, Heydər Əliyev yaşayacaqdır!

***Misirxan HƏSƏNOV,***
***"Azərkitab" Kitab Mərkəzinin direktoru, YAP Sabunçu rayon təşkilatının Gənclər Birliyinin sədr müavini***

● Milli dəyərlər

# Uğurlu inkişafın arxasında həm də tolerantlıq və multikultural örnəklər dayanır

**Şərqlə Qərbin, Şimalla Cənubun qovuşduğu geostrateji cəhətdən əhəmiyyətli bir məkanda yerləşən Azərbaycan tarixən müxtəlif sivilizasiyaların, dinlərin, mədəniyyətlərin dialoq məkanı olmuşdur. Azərbaycan xalqının milli və dini dəyərləri də məhz bu əsaslar üzərində intişar tapmışdır. 1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonrakı ilk illərdə ölkəmizə müxtəlif radikal və ultra-millətçi ideologiyaların ayaq açmaq cəhdlərinə baxmayaraq xalq bu ideologiyaların arxasınca getməmişdir.**



Prezident İlham Əliyev Dünya dini liderlərinin II Bakı Sammitində bu barədə demişdir: "1991-ci ildə Azərbaycan dövlət müstəqilliyinə nail olmuşdur. Ancaq ilk iki ildə müstəqillik formal xarakter daşıyırdı. Demək olar ki, ölkə idarəolunmaz vəziyyətdə idi. Xüsusilə 1992-ci ildə Azərbaycan Xalq Cəbhəsi tərəfindən həyata keçirilmiş hərbi çevriliş nəticəsində vəziyyət daha da ağırlaşdı, Azərbaycan dərin böhrana düçar oldu, ölkəni xaos, anarxiya, özbaşınalıq bürüdü. Eyni zamanda, dinlərarası, millətlərarası münasibətlərə böyük ziyan vuruldu. Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti tariximizin qara ləkəsidir. Bu, rüsvayçılıq dövrüdür və təsadüfi deyil ki, Azərbaycan xalqı bu antimilli, satqın və qorxaq hakimiyyətə cəmi bir il dözə bildi, bir ildən sonra öz liderinə üz tutub Heydər Əliyevi hakimiyyətə dəvət etdi və ona ölkənin gələcəyini etibar etdi".

Xalqımızın əsrlərdən bəri formalaşmış milli və dini dözümlülük ənənələrinin qorunması, ölkədə tolerantlıq və multikultural mühitin saxlanılması üçün Ümummilli Lider Heydər Əliyev misilsiz xidmətlər göstərmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin sonrakı dövrdə uğurla inkişaf etdirdiyi bu siyasət nəticəsində hazırda respublikamız dünyada müxtəlif dinlərin və mədəniyyətlərin qarşılıqlı dialoq məkanına çevrilmişdir. Təkcə son illər ərzində ölkəmizdə və onun sərhədlərindən kənarda dövlətimizin təşəbbüsü və dəstəyi ilə bu istiqamətdə həyata keçirilən çoxsaylı tədbirlər Azərbaycanın nəinki regional səviyyədə, ümumilikdə dünya səviyyəsində sülhə və sabitliyə, mədəniyyətlərarası anlaşmaya töhfə vermək iqtidarının əyani nümunələridir.

Bu günlərdə Bakıda keçirilən Dünya dini liderlərinin II Sammitini isə ölkəmizin sivilizasiyalararası dialoq məkanı statusunun bütün dinlərin aparıcı xadimləri və liderləri tərəfindən təsdiqi hesab etmək olar. Azərbaycanın artıq ikinci dəfə bu cür qlobal miqyaslı tədbirə evsahibliyi etməsini məhz həmin amillərlə izah etmək olar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya dini liderlərinin II Sammitində vurğuladığı kimi: "Bakıda belə mötəbər tədbirin keçirilməsi hesab edirəm ki, təbiidir. Çünki Azərbaycanın qədim dinlərarası ənənələri vardır. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır".

Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət həm tarixi ənənələrin qorunmasına, həm müasir inkişaf yolunun davam etməsinə, həm də bu gün qlobal təhlükəsizlik üçün əsas təhdidə çevrilən radikal qrupların və cərəyanların ölkəmizdə yayılmasının qarşısının alınmasına xidmət etmişdir.

Prezident İlham Əliyev gələcəyimiz olan gəncliyin vətənpərvərlik ruhunda tərbiyə olunmasını başlıca vəzifə kimi müəyyənləşdirmişdir. Azərbaycan dövləti özünün gələcək inkişafını sağlam, intellektli, savadlı, milli dəyərlərə sadiqlik ruhunda tərbiyə olunmuş gənclikdə görür. Prezident İlham Əliyev Dünya dini liderlərinin II Sammitində bu barədə demişdir: "Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır. Hesab edirəm ki, Bakıda keçirilən Zirvə görüşünün mövzularından biri də məhz bu olacaq. Çünki biz görürük ki, dünyada, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, bizim milli təfəkkürümüzə uyğun olmayan yeni "dəyərlər" aşılanır. Biz özümüzü və xüsusilə gənc nəslimizi bu yad və bəd təsirdən qorumalıyıq. Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Yenə də deyirəm, Azərbaycanda bu istiqamətdə aparılan siyasət - həm dövlət, həm dini liderlər tərəfindən aparılan siyasət hesab edirəm ki, çox böyük qiymətə layiqdir".

Təkcə başa vurmaqda olduğumuz 2019-cu il ərzində gənc alimlərin yerli və beynəlxalq qrant layihələrdə uğurla iştirak etmələri, xarici həmkarları ilə birgə tədqiqatlar aparmaları, qazandıqları təcrübələri müxtəlif ölkələrdən olan həmkar yaşıdları ilə bölüşmələri, əldə etdikləri elmi nəticələrini impakt faktorlu jurnallarda dərc etdirmələri ölkədəki elmi kadr potensialının parlaq gələcəyindən xəbər verir. İndi AMEA-da gənc alimlər aparıcı şöbə və laboratoriyalara, müxtəlif tədqiqat qruplarına rəhbərlik edirlər. AMEA alimlərinin birgə əməyinin məhsulu kimi meydana çıxan bir çox kollektiv əsərlərin əsas müəllifləri rolunda gənc alimlərimiz çıxış edirlər.

***Emin BAĞIROV,***
***AMEA Riyaziyyat və Mexanika İnstitutunun elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru***

● Xəbər

## Azərbaycan həqiqətləri Fransada səslənir

**Azərbaycanın Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzində bu ölkədə magistratura və doktorantura pillələrində təhsillərini başa vuran və işləyən, həmçinin təhsilini davam etdirən, elmi tədqiqatlarla məşğul olan elmi diasporumuzun nümayəndələrinin Parisdə bir araya gəlməsi sevindirici haldır.**

Çünki Fransada nəqliyyat sahəsində kütləvi tətilə baxmayaraq, uzaq şəhərlərdə yaşayan azərbaycanlı gənclərin bu tədbirə qatılması onların vətənə sevgisini və bağlılığını əks etdirir.

Bu fikirləri Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının (ADFA) prezidenti, Parisdə Azərbaycan elmi diasporunun təsis yığıncağının təşkilatçısı Günel Səfərova bildirib.



Təsis yığıncağında elmi diasporun təşəkkülünə və fəaliyyətinə dair fikir mübadiləsinin aparıldığını deyən G.Səfərova onu da vurğulayıb ki, iclasda Azərbaycanın Fransada tanıdılmasında və ölkəmizin reallıqlarının təşviqində elmi diasporun roluna dair müzakirələr aparılıb və bu qurumun təməli qoyulub. Hazırda elmi diasporun strukturuna dair müzakirələr aparılır, həmçinin idarə heyətinin üzvləri seçilir: "İnanırıq ki, elmi diasporumuz Azərbaycan həqiqətlərinin Fransa ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayacaq".

## "İstedadların hazırlığı laboratoriyası" III Beynəlxalq Olimpiadasının qalibləri mükafatlandırılıb

**Gənclər və İdman Nazirliyinin təşkilatçılığı və dəstəyi ilə keçirilən "İstedadların hazırlığı laboratoriyası" III Beynəlxalq Olimpiadasının qalibləri mükafatlandırılıblar.**

Gənclər və İdman nazirinin müavini İntiqam Babayev mükafatlandırma mərasimində çıxış edərək bildirib: "İstedadların hazırlığı laboratoriyası" ölkəmizdə onlayn platformada fənn olimpiadalarının təşkili ilə bağlı ilk və yeganə təcrübədir. 2013-cü ildən başlayaraq, hər il respublika səviyyəsində keçirilən olimpiadaya 2017-ci ildə beynəlxalq status verilib. Cari ildə ölkəmiz üçüncü dəfə bu layihəyə evsahibliyi edib. Bu önəmli və eyni zamanda ciddi məsuliyyət tələb edən layihə 10 mindən çox gənci əhatə edir. Olimpiada yeniyetmələr arasında dəqiq və təbiət elmlərini, eləcə də texniki sahələri təbliğ edir, onların bu istiqamətlərə maraqlarının artması ilə nəticələnir".



On altı yaşadək gənclərin qatıldıqları layihə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramına əsasən, yeniyetmələr və gənclər arasında elmə marağın artırılması, elmə həvəsləndirilməsi məqsədilə Gənclər və İdman Nazirliyinin təşkilatçılığı və dəstəyi ilə həyata keçirilib.

İlə yekun vurulur

# Quzanlı şəhərə çevrilib

Ermənistan silahlı qüvvələri tərəfindən ərazisinin dörddəüç hissəsi işğal edilən Ağdam zamanın ağır sınaqlarına məruz qaldı. İsti ocağından, rahat yaşayışından, doğma yurdundan perik salınan ağdamlılar zəruri ehtiyacları ucbatından demək olar ki, respublikanın bütün bölgələrinə səpələndilər.



Uzun bir zaman kəsiyində çadırlarda, yük vaqonlarında, torpaq daxmalarda ağır şəraitdə yaşayıb məhrumiyyətlərə məhkum olsalar da, həmişə dövlətə inandılar. Prezidentə sədaqətli olduqlarını öz fəal vətəndaş mövqeləri ilə nümayiş etdirdilər. Müasir dövrün inkaredilməz reallığıdır ki, bütün çətin məqamlarda vətəndaşının yanında olan dövlət də Ağdam əhalisini taleyin ümidinə buraxmadı. "Qaçqın və məcburi köçkünlərin problemləri mənim fəaliyyətimin prioritet istiqamətidir" deyə öz dəyişməz mövqeyini dəfələrlə bəyan edən Azərbaycan Prezidenti İlham Əliyevin ağdamlılara xüsusi qayğı və diqqəti isə yaralı könüllərə ən böyük təsəlli oldu.





Dövlət başçısının hər evə, hər ailəyə ünvanlanan qayğısı rayon ərazisində yeni inşa edilən bütün infrastruktura malik yeni yaşayış qəsəbələrində, müasir tipli məktəb, xəstəxana, uşaq bağçalarında, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün tikilən rahat evlərdə, asfalt yollarda, çoxsaylı sosial obyektlərdə öz parlaq təcəssümünü taparaq hər kəsdə bir məmnunluq, könül xoşluğu yaratdı.

İndi Ağdam rayonu ərazisində yeni salınan yaşayış qəsəbələrinin sayı 18-ə çatıb. Yeni qəsəbələrdə məskunlaşan, mənzil rahatlığına qovuşan ailələrin sayı isə 6500-dür.



Ölkədə uğurla həyata keçirilən kadr islahatlarının doğurduğu xoş ovqat Ağdamda da açıq-aydın hiss olunur. Öz gündəlik fəaliyyətində dövlət başçısının tapşırıq və tövsiyələrini əsas götürən Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov hər fürsətdə dövlətin xalq üçün çalışdığını rayonda həyata keçirilən tədbirlərlə təsdiqləyir. Bu sırada ayrı-ayrı kəndlərdə keçirilən səyyar qəbul-görüşlərin əhəmiyyəti böyükdür. Vətəndaşın yanında olub onu narahat edən problemləri öz dilindən eşidən, səslənən təklif və müraciətlər əsasında elə yerindəcə tədbirlər görən məmurun mövqeyi dövlətin yeritdiyi siyasət kimi bəyənilir və təqdir olunur.

Uğurlarla müşayiət olunan 2019-cu il artıq başa çatır. Hər zaman ələbaxımlıqdan uzaq olan, dövlətin qayğısından güc alıb halal zəhmətilə bolluq yaratmağa çalışan ağdamlılar yenə də alnıaçıq, üzüağdır. 2019-cu ilin uğurları kifayət qədər qürurvericidir. Cari ilin yanvar-sentyabr aylarında rayonda istehsal edilən kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 109,496,4 min manat olmuşdur. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,8 faiz çoxdur. Rayonun təsərrüfatlarında 55,530 ton taxıl istehsal edilmiş, hər hektarın orta məhsuldarlığı 38,4 sentner olmuşdur. Rayonda ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı da diqqət mərkəzində saxlanılır. Bu il 1700 tondan çox pambıq istehsal edilmişdir. Bu, keçən illə müqayisədə təxminən 60 faiz çoxdur. Fərəhlidir ki, istər bitkiçilik, istərsə də heyvandarlıq məhsulları istehsalında 2018-ci ilin nəticələri ilə müqayisədə xeyli artıma nail olunmuşdur. Qazanılan nailiyyətlər heç kəsdə arxayınçılıq yaratmır. Gələn ilin məhsul bolluğuna etibarlı bünövrə qoymaq üçün indidən zəruri tədbirlər görülür. Gələn ilin pambıq əkini üçün torpaq istifadəçiləri ilə müqavilələr bağlanılır. İndiyədək 14 min hektara yaxın şum edilmişdir.





Cəbhə bölgələrinə artan dövlət qayğısı Ağdamda daha çox diqqət çəkir. Bu il rayonda 430,4 min manatlıq əsas fondlar istifadəyə verilmişdir. Bütün maliyyə mənbələrindən əsas kapitala 5846,2 min manat investisiya yönəldilmişdir ki, bunun da 5438,2 min manatı dövlət, 408 min manatı isə qeyri-dövlət mülkiyyətinin payına düşür. Yaxşı haldır ki, tikinti-quraşdırma işlərinə yönəldilən investisiya bütövlükdə 5477,2 min manat təşkil edir. Dövlət səviyyəsində göstərilən qayğının məntiqi nəticəsidir ki, rayon ərazisində keçən ildəkindən 19,5 faiz çox tikinti işləri görülmüşdür.





Yol infrastrukturunun ildən-ilə yaxşılaşdırılması, təhsilin və səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi, sosial ehtiyacların yüksək səviyyədə qarşılanması, çox sayda sosial obyektlərin tikilib istifadəyə verilməsi bütün rayon əməkçilərinin razılığına səbəb olur, hər kəsdə məmnunluq və dövlət başçısına minnətdarlıq doğurur.

Dövlətin bu cəbhə bölgəsində hər evə, hər ailəyə ünvanlanan böyük qayğısı başa çatmaqda olan 2019-cu ildə ağdamlıların güzəranının daha da yaxşılaşması , rayon mərkəzinə çevrilmiş Quzanlı qəsəbəsinin və kəndlərin dinamik sosial-iqtisadi inkişafı ilə xarakterizə olunur. Bundan güc alan ağdamlıların qurub-yaratmaq eşqi bu gün Quzanlını inkişaf etmiş müasir şəhərə çevirmişdir.

Qazanılan əmək nailiyyətləri, vüsət alan abadlıq, quruculuq işləri nə qədər fərəhli və qürurverici olsa da, hər bir ağdamlının ürəyində bir həsrət var. Bu, Qarabağ nisgilidir, yurd həsrətidir. Hər zaman olduğu kimi, bu gün də dövlət başçısının ətrafında sıx birləşən, yenilməz sədaqət nümayiş etdirən ağdamlılar dədə-baba torpaqlarına qayıdacaqlarına ümidlidirlər. Onlar lazım gələrsə silaha sarılıb Qarabağ uğrunda döyüşlərə atılmağa, düşməndən layiqli qisas almağa da hər an hazırdırlar.







***Lazım QULİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

Elm xadimləri

# Təcrübəli pedaqoq, zəhmətkeş alim, nəcib insan

Bu yaxınlarda Azərbaycanın ilk ali təhsil ocağı - Bakı Dövlət Universiteti təntənəli şəkildə özünün 100 illiyini qeyd etdi. Ötən bu bir əsr ərzində təhsilimizin flaqmanı sayılan BDU yüzlərlə alim, müəllim və yaradıcı insanlar yetişdirib. Bunların arasında jurnalistika təhsilində danılmaz xidmətləri olan tanınmış ziyalılarımız da az olmayıb.



Belə alimlərdən biri də bu gün özünün 80 yaşını qeyd edən, zəngin elmi-pedaqoji təcrübəyə malik olan və insani keyfiyyətləri ilə seçilən dəyərli həmkarımız professor Akif Rüstəmovdur.

A.Rüstəmov ADU-nun (indiki BDU) Jurnalistika fakültəsini bitirdikdən sonra ömürlük həyatını respublikanın bu nüfuzlu ali təhsil məktəbi ilə bağlamışdır. Əmək fəaliyyətinə adi laborantdan başlamış, daha sonra müəllim, baş müəllim, dosent, dekan müavini, dekan vəzifəsinə qədər yüksələ bilmişdir. Fakültədə çalışdığı 50 ilə yaxın dovrdə Akif müəllim qayğıkeş, eyni zamanda sadə, saf əqidəsi və məsləki olan, təbiətcə sakit və iddiasız ziyalı və nurlu bir sima kimi hamının hörmətini qazanmışdır. A.Rüstəmovun etdiyi yaxşılıqlar, qayğıkeş əməllər onu daim ucaldır, zirvələrə yüksəldir.

İllər keçir, dövr dəyişir, çoxları zamana uyğun hərəkət etməyə çalışır. Akif müəllim isə dəyişməz olaraq qalır. Ona görə o, sözdə də, əməldə də, davranışında və düşüncəsində də bütöv bir zəka sahibidir. Akif Rüstəmov gözəl ziyalı-alim və təcrübəli müəllim olmaqla yanaşı, təmkinli, ləyaqətli bir insandır. Və bu keyfiyyətləri o, təkcə öz doğma Bakı Dövlət Universitetində deyil, hətta bir arada dekan olduğu özəl ali məktəblərdə də nümayiş etdirə bilmişdir. Onu da deyim ki, özəllərə Akif müəllimin özünün nə həvəsi, nə də meyli var idi. Onun dalınca rektoratın adından dəfələrlə adam göndərilərdi, zənglər, xahişlər olardı. Akif Rüstəmovun özəllərdə calışdığı illər həmin ali məktəblər üçün "intibah dövrü" olmuşdur. O, BDU-nun tədris sistemini, intizam qaydalarını özəllərə keçirmək üçün çox səy göstərirdi.

Akif Rüstəmovun mənəvi zənginliyinə və daxili təmizliyinə yaxından bələd olduqca belə bir qənaətə gəlirsən ki, ona məxsus ləyaqət, ucalıq fitri xilqətdir. Müəllimlik bütün varlığı ilə onun işində, əməlində, nəcib hərəkətlərində özünü göstərir.

A.Rüstəmov BDU-nun Jurnalistika fakültəsinin dekanı olan vaxtlarda (1989-1999) çox adama çörək verib, işə dəvət edib, yardım göstərib. Dekan olanda iş yerini özününkü hesab etməyib, vəzifəni insanlara kömək etmək şansı kimi qiymətləndirib.

Tələbələri Akif müəllimi sevir, ona hörmətlə yanaşır. Hətta rəhbərliyin ona qıyımsılıq olan dövrlərdə də Akif Rüstəmov ləyaqətini qoruyub saxlamağı bacarıb, heç kəsin yanında minnətli olmayıb. Belə hallarda o deyirdi: "Mənim üçün ən böyük mükafat tələbələrin mənə olan hörmətidir. Tələbənin hörmətini və sevincini qazanmaqdan qiymətli nə ola bilər ki?.."

A.Rüstəmovun həmkarları heç zaman onun özu haqqında yüksək fikirdə olduğunu görməyiblər. Akif müəllim çox konkret insandır. Sözü birbaşa adamın üzünə deyər. Əgər nə isə xoşuna gəlməyibsə, qarşıdakı şəxsin kimliyindən asılı olmayaraq bunu gizlətməyəcəkdir.

İstər dekan olduğu illərdə, istər ondan sonrakı dövrlərdə tələbələr təhsil aldığı dörd il ərzində Akif müəllimin bir dəfə də olsun əsəbiləşdiyinin şahidi olmayıblar. Bəlkə də olubdur, lakin o, bunu heç kəsə hiss etdirməyibdir. A.Rüstəmov hər zaman işinə məsuliyyət və dəqiqliklə yanaşır, məhz buna görə də o, kollektivdə hörmət və nüfuz sahibi kimi tanınır.

Onun xarakterinin bir cəhətini də qeyd etmək istərdim. Bir müəllim kimi Akif Rüstəmov tələbkardır. Lakin bu tələbkarlığın özündə bir qayğı vardı, o, tələbələrini öz övladlarından ayırmır. A.Rüstəmov imtahanlar zamanı tələbələri incitməz, nəyə görəsə onlara aşağı qiymət verməz. Bunu tələbələr də, valideynlər də, digər müəllimlər də yaxşı bilirlər. O, ömrü boyu belə işləyib. Bu nöqteyi-nəzərdən A.Rüstəmov çoxlarına örnək ola bilər. Hesab edirəm ki, bu, bir ömrün mükəmməl ifadəsidir.

Akif Rüstəmov hər cəhətdən etibar edilən adamdır. Onun müsbət keyfiyyətlərinə indiki zamanda çox az-az adamlarda rast gəlmək olar. Bu mənada Akif müəllim onu tanıyanlar üçün qənimət adamdır. Akif müəllim sözün əsl mənasında cəfakeş müəllimdir, öz peşəsinin vurğunudur. Bunu fakültəmizdə onunla uzun illər çiyin-çiyinə çalışan digər pedaqoqlar da təsdiqləyə bilər. Gəlin onların da Akif müəllimə olan münasibətinə nəzər yetirək:

"Cahangir Məmmədli Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, professor: Akif Rüstəmov qırx beş ildən artıqdır ki, öz həlim xarakteri, ətrafına qayğıları, özündən çox ətrafdaşlarını düşünməyi ilə bizi heyran qoyur. Jurnalistika fakültəsinin bütün inkişafı onun gözü qarşısında kecib. Ən çətin dərs bölgülərində doğma-ögeyliyə bölmədən kafedralara kömək olub. Bəzən başqalarının işini gördüyü üçün əsəbiləşən vaxtları da olub, amma heç vaxt üzə vurmayıb. Adi müəllim çağında da, vəzifəli günlərində də Akif müəllimin dostları dəyişməz olub. Onun onillik dekanlıq dövrü tələbələrinin, dostlarının, iş yoldaşlarının demokratik dövrü kimi yadda qalıb. Akif müəllim təmənnasız dekan olub. O, tələbəyə hər şeydən əvvəl həmkar kimi baxır. Mən müxtəlif redaksiyalarda keçmiş məzunların onu necə qarşıladığının şahidi olmuşam. O görüş anlarında ürəyimdən bir həsəd də qopub. Lakin dərhal hiss etmişəm ki, elə mən özüm də bu bəstəboy, iddiasız, təmənnasız, səmimi insanı çox sevirəm - dost kimi və bir də ən çətin anda köməyə gələn iş yoldaşı kimi".

Mahmud Mahmudov, dosent: "Akif müəllimin müsbət keyfiyyətlərindən biri onun haqsızlığa yol verməməsidir. Bunu təkcə bir faktın timsalında görmək olar. Keçən əsrin doxsanıncı illərinin əvvəllərində, ölkənin qarmaqarışıq dövründə universitetin keçmiş rəhbərliyinin iki ağsaqqal müəllimlərimizə - Nəsir İmanquliyevə və Seyfulla Əliyevə haradansa sərt münasibəti ortaya çıxmışdır. Rəsmi yığıncaqlarda Akif müəllimə dəfələrlə deyilmişdir:

- Onların hər ikisinin işdən azad olunması barədə təqdimat yaz!

Akif müəllim isə qəti etirazını bildirmişdi:

- Nəsir İmanquliyev də, Seyfulla Əliyev də mənim müəllimlərim olub. Buna görə də tapşırığınız mənim üçün imkan xaricindədir. Yalnız özümün işdən azad olunmağım barədə ərizə yaza bilərəm.

Qətiyyətini, inadını görüb keçmiş rəhbərlik daha təkid etməmiş, məsələdən hali olan həmin müəllimlər isə Akif müəllimə öz minnətdarlığını bildirmişdilər".

Əli Hacıyev, baş müəllim: "Heç kəsə sirr deyil ki, Jurnalistika fakültəsi digər fakültələrdən seçilir. Burada təhsil alanların əksəriyyəti hələ tələbə ikən kütləvi informasiya vasitələri ilə əlaqə saxlayır. Odur ki, informasiya sarıdan da korluq çəkmirlər. Bəzən onların verdiyi "qəliz" suallara elə cavab verməlisən ki, səndən narazı qalmasınlar. Beləlari ilə işləmək də asan deyil. Xüsusilə, Akif müəllimin dekan olduğu illər. Həmin dövr respublikanın ağır günləri idi. Qarabağ müharibəsi, ölkədəki ağır ictimai-siyasi vəziyyət, mitinqlər, sui-qəsdlər, jurnalistlərin döyülməsi, bir sözlə, sabitliyin pozulması tələbələri də hərəkətə gətirmişdi. Bu dövr mən deyərdim ki, Akif müəllim hər bir tələbəni düzgün istiqamətləndirməyi də bacarırdı... Bu illər Akif müəllimin kollektivin hər bir üzvünə eyni münasibət bəslədiyini, ayrı-seçkiliyə yol vermədiyini, həmin qanlı-qadalı günlərdə onları necə qoruduğunun şahidiyəm".

A.Rüstəmov bir neçə sanballı dərs vəsaitinin, çoxsaylı elmi məqalələrin müəllifidir. Onun ikicildlik "Jurnalistika" və "Xarici ölkələrin jurnalistika tarixi" dərs vəsaitləri, "Mətbuat azadlığı və jurnalist fəaliyyəti", "İnformasiya təhlükəsizliyi və mətbuat", "KİV-in fəaliyyətində auditoriyanın rolu", "İnformasiya cəmiyyətində KİV-in artan rolu", "Jurnalistika və beynəlxalq terrorizm problemi", "İnformasiya təhlükəsizliyi sahəsində dövlət siyasəti", "Cəmiyyət və jurnalistika" sərlövhəli yazıları elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır. Lakin onun əsas əsərləri tələbələrdir. O tələbələr ki, daxil olduğu auditoriyaya müəllimin əmanət verdiyi bilikləri və öyüd-nəsihətləti götürür. Akif müəllim çox həvəslə bildiklərini tələbələrinə ötürməyi bacarır. Və bu gün onun biliyindən qida alan neçə-neçə tələbənin səsi yüksək kabinetlərdən, nüfuzlu mətbu orqanlardan, efir kanallarından gəlir. Mən Akif müəllimin onlarla keçmiş tələbəsini tanıyıram ki, jurnalistika sahəsində özlərinə layiq və müəlliminə qürur gətirən zirvəyə qalxmışlar.

Akif müəllim nümunəvi ailə başçısı, iki oğul, bir qız atası və üç nəvə babasıdır. Oğlanlarından biri - Azər bu yaxınlarda ABŞ-ın şəhərlərindən birində müvəffəqiyyətlə magistraturanı bitirib.

Akif müəllim hər zaman olduğu kimi, indi də fakültəmizdə dərs dediyi tələbələrin jurnalistika peşəsinə dərindən yiyələnməsi üçün əlindən gələni əsirgəmir. O, bu gün də yetirmələrinin əhatəsində, ona çox doğma olan kollektivdədir.

80 az yaş deyil. Akif müəllimin bu rəqəmlə fəxr etməyə haqqı var. Həmin haqqı o, qələmindən çıxan dərslikləri və çoxsaylı məqalələri, saysız-hesabsız tələbələri, zəngin müəllimlik fəaliyyəti ilə qazanıb. Ləyaqətli insan, ağsaqqal müəllimə bundan sonra da elmi-pedaqoji işində uğurlar və insan üçün ən gərəkli olan cansağlığı arzulayırıq.

***Ayaz MUSAYEV,***
***BDU-nun Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının baş müəllimi***

## Ermənistan ordusu atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində, İcevan rayonunun Paravakar, Berd rayonunun Çinari kəndlərində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Fərəhli, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə, Tovuz rayonunun Ağbulaq kəndində və Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Ruminin irsinə töhfə



İslam dünyasının dahi mütəfəkkiri Mövlanə Cəlaləddin Ruminin vəfatının 746-cı ildönümü münasibətilə Konya şəhərində "Həzrət Mövlanə və mədəniyyətlərdə vəfa" mövzusunda beynəlxalq konfrans keçirilib.

Türkiyə Respublikası Səlcuq Universiteti Mövlanə Tədqiqatlar Mərkəzi ilə Atatürk Mədəniyyət Mərkəzinin birgə təşkil etdiyi konfransa Azərbaycanla yanaşı, bir çox xarici ölkələrdən alimlər qatılıblar. Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, AMEA Fəlsəfə İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Anar Qafarov da tədbirdə iştirak edib.

Atatürk Mədəniyyət Mərkəzinin direktor müavini Adem Uzunun açılış nitqi ilə başlayan konfrans, daha sonra Mövlanə Araşdırmaları İnstitutunun müdiri, professor Ali Temizel, Səlcuq Universitetinin rektor müavini, professor Ahmet Kaan Karabulut, professor Kadir Güldiken və Konyanın millət vəkili professor Hacı Ahmet Özdemirin "Həzrət Mövlanə və mədəniyyətlərdə vəfa" məzmunlu məruzələri ilə davam edib.

Dosent Anar Qafarov "Əxlaqın mənbəyi müstəvisində Mövlanə yaradıcılığının təhlili" mövzusunda məruzə edib. O, məruzəsində Mövlanənin əxlaq düşüncəsini metafizik, epistemoloji, psixoloji və sosioloji aspektlərdən analiz edib, əxlaqın mənbəyi problemini fəlsəfi və dini müstəvidə şərh edib. Mövlanə Cəlaləddin Ruminin ağıl-vəhy münasibətlərinə yanaşmasını təhlil edərək, dahi mütəfəkkirə görə əxlaqi propozisiyaların mənbəyi problemini metafizik, epistemoloji və psixoloji müstəvidə müzakirə obyektinə çevirib.

Dosent A. Qafarov məruzəsi əsnasında Mövlanənin "Divani-Kəbir", "Məsnəvi" və "Fihi ma fih" adlı əsərlərində yer alan bir neçə metaforadan nümunələr gətirib.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***



Fikrət Qoca

*Yazıçılar Birliyinin 85 illiyinə*

## Anam birliyim mənim

Yazıçılar Birliyim,
Doğma odum-ocağım.
Əliylə döyüldüyüm,
Sürdülər, sürgündə oldum.
Qələm olub sındığım,
Yenə, yenə, yenə də
Qoynuna sığındığım,
Doğma ana qucağım...
Hamımız övladınıq.
Bir qığılcım - odunuq
Sənin sözün - adınıq.
Qəhrəmanıq, Şəhidik,
Döyüşçünük, Qazinik!
Sözünük, Avazınıq.
Biz Çətinik, Asanıq,
Hərə bir cür - İnsanıq.
Neyləyəsən Bostanıq...
Hərəmiz bir misrayıq,
Birlikdə bir dastanıq.
Əziz anam Birliyim,
Kim nə deyirsə desin;
Sən öz dirliyini ək!
Yüzilliklər görəsən!
Səksən beşin mübarək!

## Fransada etirazlar səngimir



Fransada hökumətin planlaşdırdığı pensiya islahatına qarşı etiraz aksiyaları bərpa olunmuşdur. Ölkədə dekabrın 5-də başlamış genişmiqyaslı ümumxalq tətili də davam edir. Bu barədə "Frans Press" agentliyi xəbər verir.

Parisdə Həmkarlar ittifaqlarının çağırışı ilə Respublika meydanından Millət meydanınadək yürüş baş tutmuşdur. Aksiya iştirakçıları ilə polis arasında toqquşmalar baş vermişdir. Nümayişçilərə qarşı gözyaşardıcı qazdan istifadə olunmuşdur. Paytaxtın polis idarəsindən verilən məlumata görə, təhlükəsizlik qüvvələri 30 etirazçını saxlamışdır. Ölkənin bir neçə şəhərində nümayişçilər yolları bağlamışlar.

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Fransada keçirilmiş aksiyalarda 615 min nəfər iştirak etmişdir. Onlardan 76 mini Parisin küçələrinə çıxmışdır. Öz növbəsində Həmkarlar ittifaqları bildirir ki, etirazlarda 1,8 milyon nəfər iştirak etmişdir. Onlardan 350 mini Parisdə nümayişlərə qatılmışdır.

Kütləvi nümayişlərin iştirakçıları hökumətin planlaşdırdığı pensiya islahatından narazıdırlar. İslahat nəticəsində bir neçə peşə nümayəndələri daha tez pensiyaya çıxa bilməyəcək, yaxud yüksək ödənişlər almayacaqlar.

## Öldürülmüş 49 jurnalist



2019-cu ildə peşə fəaliyyətlərini icra edərkən 49 jurnalist həlak olmuşdur. Bu barədə "Sərhədsiz reportyorlar" təşkilatının hesabatında məlumat verilir.

Hesablamada ancaq peşə ilə ölüm arasında əlaqə rəsmən müəyyənləşdirildiyi hallar qeydə alınmışdır.

Cari ildə ən çox jurnalist Meksika və Suriyada həlak olmuşdur. Hələ avqust ayında Meksika KİV nümayəndələri üçün ən təhlükəli ölkə kimi tanınmışdır.

Jurnalist peşəsi təhlükəli olmasına baxmayaraq bu il həlak olmuş KİV əməkdaşlarının sayı son 16 ildə ən aşağıdır. Təşkilat jurnalistlərin işinə törədilən hər bir maneəni, o cümlədən onların oğurlanmasını və azadlıqdan məhrum edilməsini pisləyir.

Hesabatda qeyd olunur ki, hazırda 389 jurnalist həbsdədir, daha 57 KİV işçisi girov götürülmüşdür.


# Azercell abunəçilərinin nəzərinə

Fakturasız (SimSim) xətt və Fakturalı xətt sistemlərinə aid nömrələr ilə əlaqədar abunəçilər ilə "Azercell Telekom" MMC arasında münasibətləri tənzimləyən Abunə Müqavilələrinə aşağıdakı məzmunda 2.8.-ci maddə əlavə edilir. Müvafiq əlavə 08 yanvar 2020-ci il tarixdən etibarən, rəsmi olaraq hüquqi qüvvəyə minərək həm Fakturasız (SimSim) xətt, həm də Fakturalı xətt sistemlərinə aid nömrələrlə əlaqədar münasibətlərdə tətbiq ediləcək:

"2.8. Telekommunikasiya xidmətlərinin göstərilməsi müqabilində ödənilən vəsaitlərdən, müxtəlif xidmət və malların alınması ilə əlaqədar abunəçinin müəyyən etdiyi təyinat üzrə bank və sair təşkilatlar vasitəsilə ödənişlərin həyata keçirilməsi üçün istifadə edilə bilər".

Eyni zamanda abunəçilər "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi - SimSim abunəçiləri (012) 490-49-49/2002, Fakturalı xətt abunəçiləri (012) 490-52-52/6565, e-poçt: customercare@azercell.com; musterixidmetleri@azercell.com, o cümlədən online müştəri xidmətləri) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


# "Bakı Metropoliteni" QSC
## diyircəkli yastıqlar və onların istismarı ilə bağlı materialların satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC üçün diyircəkli yastıqlar və onların istismarı ilə bağlı materialların satın alınması.**

**İştirak haqqı - 50 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **13 yanvar 2020-ci il saat 14:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **22 yanvar 2020-ci il saat 14:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **23 yanvar 2020-ci il saat 14:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin digər maşın və avadanlıqların açıq tender (etender) üsulu ilə satın alınması üzrə 12 dekabr 2019-cu il tarixli yekun protokoluna əsasən "Lotus CO" MMC qalib elan edilmiş və 13 dekabr 2019-cu il tarixdə müqavilə imzalanmışdır.

**Ünvan: AZ1005 Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13.**
**Əlaqələndirici şəxs: Firudin Məsməliyev.Telefon: (+99412) 497-41-66.**

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 27.12.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan "**Bakı Metropoliteni" QSC üçün müxtəlif növ kafel, metlax və abraziv qumun satın alınması** üzrə açıq tenderdə iddiaçıların sayı 3 (üç)-dən az olduğundan tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsi (DOST Agentliyi) "**Dəftərxana və təsərrüfat malları**"-nın satın alınması məqsədilə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş və müsabiqənin qalibi **"BU BU" MMC** müəyyən edilmiş, qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

***Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin "Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən 2020-ci il üçün katriclərin doldurulması üzrə iş və xidmətlərin satın alınması məqsədilə kotirovka sorğusu keçirilir.***

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 24 dekabr 2019-cu il saat 12:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə təqdim edilməlidir. Əlaqələndirici şəxs - Abbas Mamedov, (telefon: 012-488-80-65). Zərflər 24 dekabr 2019-cu il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirçi Tower" ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə və ya www.scip.az saytından əldə edə bilərlər.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

***Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi dəftərxana mallarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.***

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 20 dekabr 2019-cu il saat 17:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin avadanlıqların açıq tender (etender) üsulu ilə satın alınması üzrə 17 dekabr 2019-cu il tarixli yekun protokoluna əsasən "Nur-SS" MMC qalib elan edilmiş və 17 dekabr 2019-cu il tarixdə müqavilə imzalanmışdır.

**Ünvan: AZ1005 Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13.**
**Əlaqələndirici şəxs: Firudin Məsməliyev. Telefon: (+99412) 497-41-66.**

*Tender komissiyası*

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli və komitənin üzvləri Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərliyi SOCAR-ın prezidenti Rövnəq Abdullayevə əzizi

**QƏNİRƏ PAŞA QIZI CƏFƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Milli Məclisin Mədəniyyət komitəsinin sədri, akademik Rafael Hüseynova qardaşı

**RÖVŞƏN HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naftalandan Vüqar Novruzov Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin kollektivi Etibar Ələkbərova atası

**BAXIŞƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin Mədəniyyət komitəsinin sədri, akademik Rafael Hüseynova qardaşı

**RÖVŞƏN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevə əzizi

**QƏNİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi

**MAARİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8896
Sifariş 4258
Qiyməti 40 qəpik